Politologiya elmində siyasətin idarəetmədən ayrılması konsepsiyasında dövlət hakimiyyəti orqanının bir-birindən fərqli iki funksiyası qeyd olunur:siyasi və idarəetmə funksiyaları. Siyasi funksiya, dövlət qurumlarının və onların aparatlarında fəaliyyət mexanizmi üzrə ümumi istiqamətlər və konkret məqsədlərin müəyyən edilməsini ehtiva edir. İdarəetmə funksiyası isə qəbul olunmuş qərarların icrası ilə bağlıdır. Birinci funksiyanı siyasi vəzifə tutan(siyasi elita), ikinci funksiyanı inzibati vəzifə tutan şəxslər (dövlət qulluqçuları) yerinə yetirir. Əgər hakimiyyətdə dəyişiklik olarsa, birincilər dəyişilir, ikincilər isə peşəkarlardır, onlar fəaliyyətini davam etdirməlidirlər. Sözügedən doktrinaya görə siyasi rəhbərlərin dəyişməsi idarəetmə aparatının fəaliyyətinə təsir etməməlidir. Bu isə Q.V.Atamançukun dövlət qulluğuna verdiyi "dövlət orqanlarında təsis edilmiş dövlət vəzifələrinin bilavasitə icrası ilə dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsində vətəndaşların praktiki və peşəkar fəaliyyəti" anlayışa uyğun gəlir. (11,s.2)

Dövlət hakimiyyəti və dövlət qulluğunun qarşılıqlı əlaqəsi konstitusiya və normativ-hüquqi aktlarda müəyyən edilir. Dövlət cəmiyyətin leqal və legitim hakimiyyəti olduğundan o öz məqsəd və funksiyalarını dövlət rəhbərliyində və dövlət idarəetməsi vasitəsilə həyata keçirir. Dövlət qulluğu dövlətin rəhbərlik-siyasi hissəsinə yox, idarəetmə hissəsinə aiddir.

Dövlət rəhbərliyin siyasi vəzifələri tutan siyasi elita, idarəetməni isə onun əsas mexanizmi olan dövlət qulluğu vasitəsilə həyata keçirir. Bütün bunlar siyasi hakimiyyətin, dövlət idarəetməsinin və dövlət qulluğunun əlaqələrinin və qarşılıqlı təsirinin məntiqi nəticəsini göstərir. (12, s.41)

Odur ki, dövlət qulluğunun hakimiyyət sistemində yeri və rolundan asılı olaraq cəmiyyətin effektivliyi təmin olunur. Dövlət qulluğu dövlətin məqsəd və funksiyalarını həyata keçirmək üçün ona hakimiyyət (güc, məcburetmə, təhrik etmə, avtoritet) verilir və nəticədə dövlət-qulluq münasibətləri yaranır, dövlət bu münasibətlərin subyektinə çevrilir.Beləliklə, dövlət qulluğu dövlət hakimiyyətini yerinə yetirən sosial-hüquqi və təşkilati institut olmaqla – dövlət hakimiyyətinin digər institutlarının formalaşması, realizəsi və təkmilləşdirilməsi mexanizmi kimi qəbul edilir.

Müasir dövrümüzdə dövlətlərin idarəetmə sistemində təzahür edən innovativ dəyişikliklər sərt reqlamentlərə əsaslanan ənənəvi modellərdən fərqli olaraq yeni idarəetmə modellərinin- müasir, vətəndaş yönümlü idarəetmənin qurulması zəruriliyini üzə çıxarmışdır. Dövlət qulluğu sistemində tətbiq edilən innovasiyalar birbaşa dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin yüksəlməsində, vətəndaşların daha keyfiyyətli xidmətlərlə təmin olunmasında idarəetmə mexanizminin təkmilləşdirilməsində öz əksini tapır.

Müasir mərhələdə dövlət qulluğunun mühüm göstəricilərindən biri də bir sıra inkişaf etmiş ölkələrdə bu sahədə fəaliyyətin elektronlaşdırılmasıdır. Bu fəaliyyət özünü əsasən elektron hökumətin tətbiqi ilə göstərməkdədir. Elektron hökumət (e-Government) müvafiq olaraq, dövlətin fəaliyyətinin əməliyyat və ya icra sahəsini əhatə edir və vətəndaşların müvafiq istiqamətdə dəqiq informasiyalar əldə etmələrini, vətəndaşlarla hakimiyyət strukturları arasında qarşılıqlı fəaliyyət üçün şəraitin yaradılmasını, vətəndaş cəmiyyəti institutları və biznes ilə dövlət idarəetmə orqanları arasında dialoqun inkişaf etdirilməsi təmin edir.

Azərbaycanda e-hökumətin əsası 2003-cü ildə qəbul edilmiş və ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya kommunikasiya

texnologiyaları üzrə Milli Strategiyası (2003-2012-ci illər) ilə qoyulmuşdur. Milli Strategiyanın əsas vəzifələri arasında elektron hökumətin yaradılması mühüm bənd kimi göstərilmişdir. (13, s.21)

Azərbaycanda dövlət qulluğunun müasir modelinin yaradılması sahəsində, həmçinin idarəetmədə innovasiyaların, İKT-nin ən uğurlu nümunələrindən biri kimi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanı ilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılmasını göstərə bilərik.Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərinin vahid şəkildə idarə edilməsini, mərkəzlərdə fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin həyata keçirilməsini, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. (14)

Ölkəmizdə dövlət qulluğunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində 27 oktyabr 2018-ci il tarixdə imzalanmış Azərbaycan Respublikası Prezidenti tərəfindən “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdınlması tədbirləri haqqında” Fərman da mühüm əhəmiyyət daşıyır. Fərmanda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün “Elektron sənəd dövriyyəsi sistemi” yaradılması, dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi məsələləri yer alır. Bütün bu və ya digər addımlar Azərbaycanda dövlət qulluğunun inkişafının əlamətlərindəndir. Hazırda Azərbaycan dövlət qulluğu sistemində tətbiq olunan bir sıra yeniliklər xarici ölkələr tərəfindən öyrənilir və təqdirəlayiq hesab edilir.

Azərbaycanda dövlət qulluğu sisteminin müasir standartlar səviyyəsinə yüksəldilməsi istiqamətində “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya” qəbul edilmişdir. Strategiya 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planından ibarətdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 23 noyabr 2018-ci ildə sərəncamı ilə təsdiq edilmiş Strategiyanın əsas məqsədi dövlət qulluğu sahəsində idarəçiliyin təkmilləşdirilməsi, kadr potensialının inkişafına nail olmaq, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. (15, s.31)

Azərbaycanda dövlət qulluğunun müasir tələblər əsasında qurulması prosesində etik davranış kodeksi də prioritet təşkil edir və bu sahədə standartlar təkmilləşdirilir. Bu standartlara əlavə olaraq, dövlət fəaliyyətinin həyata keçirilməsində məsuliyyət daşıyan hökumət üzvləri, nazirlər, hüquq-mühafizə orqanları, vergi və gömrük idarələri və s.bu kimi maraqlar toqquşması riskinin yüksək olduğu sahələrdə işləyən müəyyən qruplar və ya peşələr üçün əlavə təlimatlar hazırlanmış, etik davranış qaydalarının nəşr olunması və bu qaydaların səmərəli bir şəkildə tətbiqi istiqamətində hüquqi çərçivə və güclü nəzarət mexanizmi formalaşdırılmışdır.

## Nəticə

Beləliklə, Azərbaycanda dövlət qulluğu sisteminin formalaşmasının tarixi-inkişaf xüsusiyyətlərini müəyyənləşdirərək, belə qənaətə gəlmək olur ki, Azərbaycanın zəngin idarəçilik təcrübəsinə malik olması müasir və liberal dövlət qulluğu sisteminin formalaşmasına şərait yaratmışdır. Azərbaycan dövlət qulluğu sistemi öz yaranması və təkamülü prosesində üç tarixi mərhələ keçmiş və həmin tarixi dövrün xüsusiyyətlərini özündə əks etdirmişdir. Hazırkı mərhələdə isə, dövlət qulluğu sisteminin təkmilləşdirilməsi dövlətin sosial, siyasi, iqtisadi məqsədlərinin və dövlətin təşkiledici, tənzimləmə və nəzarət funksiyalarının effektiv formada yerinə yetirilməsini şərtləndirir. Xüsusilə də fəal vətəndaş cəmiyyəti və hüquq dövlət quruculuğu prosesində dövlət qulluğu sisteminin innovativ əsaslarla təkmilləşdirilməsi milli inkişaf strategiyasının səmərəli həyata keçirilməsinin başlıca şərti rolunda çıxış edir.

## References

1. Mahmudov Y. Azerbaijan:a brief history of statehood. Baku, Education, 2005, 140p.
2. The Constitution of the Republic of Azerbaijan. Law Publishing House, 2017, 91 p.
3. Bunyadov Z. The state of the Atabeys of Azerbaijan (1136-1225) Baku, “East-West”,2007, 312 p.
4. Ismayilov S. The past and present of the civil service and management system in Azerbaijan and prospects. Baku, «Oguz Eli», 2013, 216 p.
5. Rzayev A.H. Public authority: Conceptual analysis and civil service institute interaction // Baku University News. Socio-political sciences series, 2011, № 2, p. 342.
6. Huseynova N., Civil service and personnel policy. Baku: “Adiloğlu”, 2013
7. Rehimli R. Azerbaijan state personnel management. Ankara, 2011, 256 p
8. Bhatnagar S. E-Govemment: from Vision to Implementation, Sage Publications, New Delhi I Thousand Oaks. L., 2005. P. 29-30.
9. Conducting an interview for the purpose of holding a civil service position of the President of the Republic of Azerbaijan on approval of “Rules”Decree. Collection of Legislation of the Republic of Azerbaijan, 606, 2017.
10. Law of the Republic of Azerbaijan on Civil Service. Legal literature, 2001, 40 p
11. G.V. Atamanchuk The essence of public service. M., 2008, p. 312.
12. S.M.Gandilov. Theory of public administration, Baku, Science and education, 2010
13. “On reforms in the public administration system of the Republic of Azerbaijan Decree on the establishment of the State Commission ”, December 29, 1998
14. ASAN service “created in Azerbaijan by an international company is high has been assessed.”https://azertag.az/xeber/ASAN_xidmet_beynelxalq_sirket_terefinden_yuksek_deyerlendirilib

**Rəyçi: s.e.f.d. C.Cahangirli**

Göndərilib: 06.11.2021 Qəbul edilib: 23.11.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/18-22

**Kənan Amil oğlu Musayev**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
kk1479401@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA DAVAMLI QİDA TƏMİNATI YOLUNDA ATILAN ADDIMLAR VƏ ƏSAS HƏDƏFLƏR

**Xülasə**

Son dövrlərdə Yer kürəsində geniş vüsət alan iqlim dəyişiklikləri, torpaq və su resurslarının deqradasiya prosesi və dünya əhalisinin durmadan artması ciddi problemlərə yol açmışdır. Bu isə öz növbəsində ərzaq məhsulları ilə təminat məsələsinə təsirsiz ötüşmür. Hər bir ölkənin əsas məqsədlərindən biri əhalini keyfiyyətli və təhlükəsiz ərzaq məhsulları ilə təmin etmək hesab edilir. Etibarlı ərzaq təminatı ölkə üçün başlıca şərt kimi, iqtisadi və sosial dayanıqlılığın əsasını təşkil etməklə yanaşı, dövlət təhlükəsizliyinin və demoqrafik təhlükəsizliyin mühüm şərtlərindən biridir. Bu sahədə isə kənd təsərrüfatının rolunu qeyd etmək lazımdır. Əhalinin öz fəaliyyətini saxlaması və təkrar istehsalını həyata keçirməsi prosesində kənd təsərrüfatı əvəzedilməz rola malikdir. Kənd təsərrüfatının əsasını isə heyvan və bitki mənşəli məhsullar təşkil edir.

***Açar sözlər:*** *İntensiv təsərrüfatçılıq, hidroponik becərmə, zoonoz xəstəliklər, ərzaq təhlükəsizliyi, qida təhlükəsizliyi, epizootiya, izlənilə bilənlik, zəncirvari izlənmə, daxili izlənmə.*

## Steps and key targets on the road to sustainable food supply in Azerbaijan Respublic

**Summary**

Climate change, the degradation of land and water resources and the relentless growth of the world's population have caused serious problems in recent times. This in turn, affect the supply of food. One of the main objectives of each country is to provide quality and safe food for the population. Reliable food supply is an important condition for national security and demographic security while underpinning economic and social stability as a key condition for the country. In this regard, however, the role of agriculture should be noted. Agriculture plays an irreplaceable role in the process of keeping the population functioning and reproducing. On the other hand, Agriculture is made up of animals and plants.

***Key words:*** *İntensive agriculture, hydroponic cultivation, zoonosis, food security, food safety, epizootia, trace ability, chain tracking, internal tracking.*

## Giriş

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində kənd təsərrüfatı mühüm rola malikdir. Xüsusi ilə bitkiçilik məhsulları artan tələbatın ödənilməsi və ixrac potensialının artırılmasında əvəzedilməz rola malikdir. Nəzərdə tutulmuş istiqamətlərdən biri də "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"dir. Kənd təsərrüfatının inkişafında dair 2025-ci il və sonrakı dövr üçün hesablanan uzunmüddətli baxış özündə bir sıra mühüm məsələləri ehtiva edir. Bura:

1. Ailə-kəndli təsərrüfatlarının bazaryönümlülüyünün gücləndirilməsi;
2. İntensiv təsərrüfatçılığa keçid;
3. Xarici investorların cəlbi üçün əlverişli mühitin yaradılması;
4. Kənd təsərrüfatı sisteminin yaradılması;
5. İnformasiya xidmətlərinin təkmilləşdirilməsi;
6. Biznes mühitinin inkişaf etdirilməsi;
7. Aqrokomplekslərin yaradılması;

8. Emal və kənd təsərrüfatı məhsulları istehsalı arasında daha əlverişli əlaqələrin yaradılması;
9. Elmi-texniki nəaliyyətlərin kənd təsərrüfatı məhsullarının istehsalına inteqrasiya edilməsi;
10. Orqanik kənd təsərrüfatının inkişaf etdirilməsini aid etmək olar. (1)

Kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyini artırmaq üçün əsas məsələlərdən biri kimi intensiv təsərrüfatçılığın inkişafını qeyd etmək olar. Avtomatlaşdırmaya və aqrotexniki qaydalara əsaslanan intensiv təsərrüfatçılıq hər bir bölgənin potensialını nəzərə alaraq tədbirlər görülməsini, xüsusi istehsal sahələrinin, o cümlədən, altsektorların yaradılmasını nəzərdə tutur. İntensiv kənd təsərrüfatı bitkilərin inkişafını optimallaşdırmaq üçün nəzarətli şəkildə istehsal prosesini həyata keçirməyi özündə ehtiva edir. İntensiv təsərrüfat zamanı istehsala müdaxilə edən günəş radiasiyası, ehtiyac duyulan ədalətli suvarma, lazımi temperatur, o cümlədən, nisbi rütubəti optimal həddə çatdırmağa çalışılmalıdır. İntensiv kənd təsərrüfatı növlərindən biri istixana sahələridir. Bu metod vasitəsi ilə məhsulun inkşafı zamanı zərərli orqanizmlər, xəstəliklər, güclü külək və yağış kimi mənfi müdaxilələri nəzarətə almaq mümkün olur. (2)

Digər bir istiqamət kimi nəzərdə tutulan məsələ kənd təsərrüfatı sisteminin yaradılmasıdır. Kənd təsərrüfatının əsasını təşkil edən məhsullar və torpaq sahələri haqqında məlumatlardan ibarət bazanın yaradılması təkmil qərarların qəbul edilməsinə, istehsal və emal sektorunda köklü surətdə dəyişikliklərin edilməsinə və bu sahəyə ayrılan dövlət vəsaitlərində səmərəliliyinin artırılmasına şərait yaradacaqdır. Keyfiyyətli istehsalın artırılması üçün fermerlərə lazım olan informasiyanın təmin edilməsi də mühüm şərtlərdəndir. Bu məqsədlə informasiya-məsləhət xidməti yaradılacaqdır. Əsasını lazımi məlumatlar və ekspertlərin fikirləri təşkil edən informasiya xidməti vasitəsi ilə maarifləndirmə təbirlərinin əhatə dairəsi genişlənəcək ki, bu da öz növbəsində, istehsal səmərəliliyinin artırılmasına zəmin yaradacaqdır.

Kənd təsərrüfatı sektorunda digər mühüm problem mövcud ənənəvi kənd təsərrüfatı sistemidir. Ənənəvi kənd təsərrüfatı daha çox məhsulun əldə edilməsinə yönədiyindən ciddi problemlərə səbəb olur. Deqredasiya prosesinin miqyası genişlənir, torpaq və hava çirklənir, biomüxtəlifliyə ciddi ziyan vurur və istixana effekti yaradan qazların 13%-i ənənəvi kənd təsərrüfatı hesabına yaranır. Adi kənd təsərrüfatı sistemində torpağın erroziyaya uğraması nəticəsində içməli suların çirklənməsi, həmçinin müxtəlif toksiki maddələrin toplanması bütün canlıların sağlamlığına ciddi ziyan vurur. Məhz bu səbəblərə görə Orqanik kənd təsərrüfatının (OKT) inkişafı mühüm amil hesab olunur. Orqanik kənd təsərrüfatının üstünlükləri:

1. Ətraf-mühitin çirklənmə riski azalır və təbii ekosistem qorunur;
2. Enerji sərfiyyatına qənaət edir;
3. Biomüxtəlifliyin qorunmasına şərait yaradır;
4. Heyvanların və istehlakçıların sağlamlıq və təhlükəsizliyinin qorunmasında rola malikdir.
5. Sintetik gübrələrin istifadə olunmaması nəticəsində içməli suyun çirklənməsinin qarşısı alınır.
6. Orqanik kənd təsərrüfatında bərpa olunmayan enerjilərə 25% qənaət olunur.(3)

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 fevral 2017-ci il tarixli fərmanı əsasında Respublikada Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır. Azərbaycan Republikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" əsasnaməyə görə Qida Təhlükəsizliyi Agentliyi baytarlıq və fitosanitar normaların təkmilləşdirilməsi, bu sahədə çalışan subyektlərin qeydiyyata alınması, müvafiq setrfikatların verilməsi, qida məhsulları istehsalının bütün mərhələlərində təhlükəsizliyin təmin olunması, bu sahə üzrə istehlakçıların hüquqlarının qorunmasına dövlət nəzarəti, dövlət siyasəti və tənzimlənməsi üzrə fəaliyyəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.(4)

Mühüm tədbirlərdən biri kimi, Prezidentin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 5.5-ci bəndinə əsasən "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə

dair 2019–2025-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Nəzərdə tutulan əsas hədəflər beynəlxalq tələblərə uyğun qida təhlükəsizliyi norma və standartlarının hazırlanması, tələbatın keyfiyyətli və təhlükəsiz qida ilə ödənilməsi prosesinin yaxşılaşdırılması, rəqabətqabiliyyətliliyin artırılması və ixrac potensialının təkmilləşdirilməsi, aqrokimyəvi maddələrə, bitki mühafizəsi və baytarlıq peraparatları vasitələrinə nəzarətin artırılması, o cümlədən, bu sahədə maarifləndirmə prosesinin təkmilləşdirilməsi, qida təhlükəsizliyi sahəsində çalışan subyektlərin qanun çərçivəsində əməkdaşlığının təmin edilməsi, heyvan və bitki sağlamlığının təmin edilməsində beynəlxalq təcrübənin tətbiq edilməsi və əlverişli və səmərəli biznes mühitinin formalaşdırılmasını aid etmək olar.

Proqramın icrası nəticəsində 2025-ci ilə qədər nəzərdə tutulan hədəflərə:
1. Qida təminatı ilə əlaqədar zəhərlənmə hallarının azaldılması;
2. Norma və qaydaların tətbiqi sahəsində beynəlxalq təcrübənin nəzərə alınması;
3. Zoonoz xəstəliklərin nəticəsində insanlar arasında yayılan xəstəliklərin minumuma endirilməsi;
4. Laboratoriya analizlərinin dəqiqlik göstəricilərinin 95%-ə yüksəldilməsi kimi prioritet istiqamətləri aid etmək olar.(5)

Respublika ərazisində bitki mühafizəsi və karantini, bioloji peraparatlar və digər bitki mühafizə vasitələrinin istifadəsi ilə əlaqədar, o cümlədən, bu sahədə fəaliyyət göstərən subyektlər arasında münasibətləri tənzimləmək məqsədi ilə "Fitosanitar nəzarət haqqında" qanun 12 may 2006-ci il tarixində qüvvəyə minmişdir. Fitosanitar nəzarətin əhatə dairəsinə qanunda nəzərdə tutulmuş tələblərin hüquqi və fiziki şəxslər tərəfindən əməl olunması, zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasına və yayılmasına qarşı yönələn tədbirlərin təşkili və tətbiq edilməsi, bitki məhsulu istehsalının bütün mərhələlərində normalara riayət olunmasını, karantin tətbiq edilən məhsullarda mövcud ola biləcək zərərli orqanizmlərinin öyrənilməsi məqsədilə müşahidələrin aparılması, qarşısının alınması və ləğvinə yönələn məcburi tədbirlərin həyata keçirilməsini, bitki mühafizəsi vasitələrinin dövriyyəsi ilə məşğul olan şəxslərin fəaliyyətinə nəzarət olunması, o cümlədən, qanunvericiliyə uyğun digər məsələləri özündə ehtiva edir.(6)

***Əsas prinsiplər:***

1. *Əlaqələndirmə* - Nəzərdə tutulan fitosanitar nəzarət tədbirlərinin beynəlxalq təcrübəyə uyğun vahid metodika əsasında tətbiq olunması;
2. *Ekvivalentlik* – Beynəlxalq ticarət ilə əlaqədar, ölkədə tətbiq edilən fitosanitar tədbirlər və vəziyyət haqqında xarici dövlətlərə informasiya verilməsi və həmin ölkələrdə müşahidə olunan tədbirlərin hüquqi bərabərliyinin qəbul edilməsi;
3. *Şəffaflıq* – Fitosanitar nəzarət ilə əlaqədar qəbul edilmiş norma və qaydalar və edilmiş dəyişikliklər barədə informasiya mübadiləsi aparılmalı və beynəlxalq təşkilatlara məlumat verilməli;
4. *Riskin qiymətləndirilməsi* – Elmi sübutlara əsaslanan tədbirlər və beynəlxalq təşkilatlar tərəfindən hazırlanan riskin qiymətləndirilməsi texnikası vasitəsilə riskin minumuma endirilməsi;
5. *Fitosanitar mühafizənin səviyyəsinin müəyyənləşdirilməsi* – Fitosanitar mühafizə beynəlxalq standartlara uyğunlaşdırılmalı və özünü təsdiq etməyən məhdudiyyətlərə yol verilməməli;
6. *Regional şəraitə uyğunlaşma* - İdxal və ixrac əməliyyatları zamanı regionun vəziyyəti və xüsusiyyətləri nəzərə alınmalıdır.(7)

Ölkənin baytarlıq məhsulları sağlamlığının hüquqi əsaslarını, dövlət baytarlıq nəzarətində daşınan məhsulların təhlükəsizliyinin və bu sahədə fəaliyyat göstərən subyektlər arasında münasibətləri tənzimləmək məqsədi ilə 31 may 2005-ci il tarixində "Baytarlıq haqqında" qanun qüvvəyə minmişdir. Azərbaycan Respublikası Konstitusiyasına, müvafiq normativ aktlara və beynəlxalq müqavilələrə əsaslanan baytarlıq qanununun əsas məqsədləri:

1. Xarici ölkələrdə mövcud ola biləcək hər hansı heyvan xəstəliklərinin ölkə ərazisinə daxil olmasına və yayılmasına qarşı yönələn tədbirlər görmək;

2. Yoluxan və yoluxmayan heyvanlarda mövcud olan xəstəliklərin müayinə və müalicə edilməsi və heyvan məhsuldarlığının inkişafına istiqamətlənmiş fəaliyyəti həyata keçirmək;
3. İnsanları zoonoz xəstəliklərdən qorumaq;
4. Dövlət baytarlıq nəzarətində daşınan yüklərlə bağlı bütün əməliyyatların baytarlıq sanitar normativ qaydalara uyğun formada həyata keçirmək;
5. Zoonoz xəstəliklərlə mübarizə məqsədi ilə tədbirlər planını təkmilləşdirmək, baytarlıq peraparatlarını,yem əlavələrini və digər maddələrin təhlükəsiz və keyfiyyətli olmasına nəzarət etmək;
6. Bu sahə üzrə fəaliyyət göstərən subyektlər tərəfindən ətraf-mühitə dəyə biləcək zərərə qarşı nəzarət proqramları təşkil etmək;
7. Baytarlıq sahəsində elmin inkişafı,kadr potensialından səmərəli istifadə və ixtisasartımına yönələn fəaliyyət proqramı həyata keçirmək;
8. Nəzərdə tutulan tədbirlər planı və görüləcək işləri beynəlxalq təcrübəyə uyğun formada reallaşdırmaq kimi prioritet istiqamətləri qeyd etmək mümkündür.(8)

Qida təhlükəsizliyi məsələsi getdikcə dünyanı narahat edən məsələlərdən birinə çevrilir. Təhlükəsiz və keyfiyyətli qida əldə etmək üçün əsas yollardan biri kimi *izlənilə bilənlik* (trace ability) metodu istifadə olunur. Bu metod mahiyyət etibarı ilə qeyri-qənaətbəxş vəziyyətdə olan qida məhsullarının xammaldan istehsal prosesinin bütün mərhələlərinə və istehlaka qədər "harada və nə vaxt" istehsal edildiyini müəyyən etmək üçün istifadə edilən üsuldur. "Bir addım irəli bir addım geri" prinsipinə əsaslanan izlənə bilmə qabiliyyəti vasitəsi ilə qidanın mənşəyini, tərkibində mövcud olan qida maddələrini və onların mənbələrini müəyyən etmək mümkün olur.

Beynəlxalq Standartlaşdırma Təşkilatı olan İSO 9001" standartının "ISO 22005:2007" standartı ilə müəyyən edilmiş izlənilə bilənlik:

1. Qida zəncirinin axınını müəyyən etmək;
2. Hər bir istehsal mərhələsi üçün lazımi sənədləşməni izləmək;
3. İştirakçı tərəflər arasında koordinasiya əlaqələri qurmaq;
4. Etibarlı informasiya vasitəsi ilə istehsal səmərəliliyini yaxşılaşdırmaq mümkün olsun.

İzlənilmə baxımından əsas iki prespektiv istiqamət olaraq zəncirvari izlənmə və daxili izləməni qeyd etmək mümkündür. Zəncirvari izləmə xammal və digər hissələrin əldə edilməsindən etibarən məhsulun hazırlanması mərhələlərinə, paylanmasına və istehlakına qədər olan tarixi irəli və geri izləməyə imkan verir. İrəli izləmə o deməkdir ki, istehsalçılar məhsulun göndəriləcəyi yerə nəzarət etmə imkanı əldə edir. Geri izləmənin isə mahiyyəti ondan ibarətdir ki, şirkətlər və ya istehlakçılar əldə etdikləri qida məhsullarının hansı ərazidən gəldiyini öyənə bilirlər. Zəncirvari izləmə istehsalçılara gözlənilməz problemlər yarandığı zaman səbəbləri araşdırmağa və məhsulu geri çağırma imkanı verir. Daxili izləmə isə mahiyyət etibarı ilə məhsulun hərəkətini bir şirkət və ya təhcizatçı daxilində izləmə imkanı yaradır.İstehsal prosesində hər hansı bir məhsul və ya xammal başqa bir məhsul ilə birləşdikdə,konfiqurasiya edildikdə va ya təkrarlananda, yeni məhsulun fərdi Unikal Məhsul Identifikseri yaradılır.(9)

## Nəticə

Hər bir ölkənin əsas məqsədlərindən biri ərzaq təhlükəsizliyini təmin etməkdən ibarətdir. Bu sahədə isə əsas rol kənd təsərrüfatının üzərinə düşür. Kənd təsərrüfatının inkişafı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı ərzaq bazasının formalaşmasına və idxaldan asılılığın azalmasına şərait yaradır. Digər cəhətdən, kənd təsərrüfatının intensiv formada inkişafı insanların maddi rifah halının stimullaşdırılmasına, həyat şəraitinin yaxşılaşdırılmasına və ərzaqla təminatına təsirsiz ötüşmür. Məhsuldar sortların müəyyən edilməsi, elmi-tədqiqat institutları ilə kənd təsərrüfatı sahələrinin qarşılıqlı fəaliyyət göstərməsi məhsuldarlığı artırmaqla bərabər, kənd təsərrüfatının iqtisadiyyatdakı rolunun yüksəldilməsinə şərait yaradır. Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi ölkədə ekoloji təmiz məhsulların istehsalının artırılmasına və əhalinin sağlamlığının qorunmasına,

torpaqların münbitliyinin bərpa edilməsinə, torpaqların deqradasiyasının qarşısının alınmasına, məhsuldarlığın və məhsul istehsalının yüksəldilməsinə, idxaldan asılılığın azaldılmasına, ərzaq təhlükəsizliyini tamamilə daxili istehsal hesabına təmin edilməsinə və ixrac yönümlü ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsinə əsaslı zəmin yaradacaqdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi ilə əlverişli və qabaqcıl biznes mühitinin formalaşmasına və lazımi kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsində əsaslı artıma nail olmaq mümkündür.

## References

1. Strategic roadmap for the production and processing of agricultural products in the Republic of Azerbaijan
2. https://www.jardineriaon.com/az/intensiv-k%C9%99nd-t%C9%99s%C9%99rr%C3%BCfat%C4%B1.html
3. A.e.f.d Vugar Babayev – " State phytosanitary control system in the territory of Azerbaijan" article. 10 pages. 08.04.2021
4. Regulations of the Food Safety Agency of the Republic of Azerbaijan
5. State program on ensuring food security of the Republic of Azerbaijan for 2019 - 2025
6. Phytosanitary quarantine requirements of the Republic of Azerbaijan
7. Law of the Republic of Azerbaijan on phytosanitary control
8. Law of the Republic of Azerbaijan on veterianry control
9. Traceabılıty ın food and agrıcultural products – International Trade Centre

**Rəyçi: a.e.f.d Vüqar Babayev**

DOI: https://www.doi.org/10.36719/2789-6919/23-29

**Ebru Ələsgər qızı Bədirli**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
bakalavr tələbəsi
Badirovaebru@gmail.com

# AVROPA BİRLİYİNDƏ YERLİ İDARƏETMƏ İLƏ AZƏRBAYCANDAKI YERLİ İDARƏETMƏNİN MÜQAYİSƏSİ VƏ HƏR İKİ NÜMUNƏDƏKİ MÜSBƏT VƏ MƏNFİ CƏHƏTLƏRİ

**Xülasə**

"Avropa Birliyində yerli idarəetmə (çox–səviyyəli dövlət idarəsi) ilə Azərbaycandakı yerli idarəetməni müqayisə edin və hər iki nümunədəki müsbət və mənfi cəhətləri qeyd edin "adlı məqaləni yazarkən əvvəlcə Azərbaycanda və Avropa Birliyində yerli idarəetmə haqqında məlumat verdim, bundan da ikisi arasındakı idarəetmədə fərqli və oxşar cəhətlər aydın olur.Ölkəmizdə bələdiyyələr haqqında geniş araşdırmaların və ədəbiyyatların zəngin olmaması, bələdiyyələrin gördüyü işlərin və büdcəyə daxilolmalarının hansı istiqamətdə sərf olunduğunu əks etdirən hesabatılığın ictimaiyyətə açıq şəkildə paylaşılmaması, dövlət tərəfindən hər bir bələdiyyəyə ayrılan pul transferlərin hansı meyarlarla verildiyini, bələdiyyələrin həmin vəsaitlərin hansı yöndə xərclədiyini əks etdirən sənədlərin və digər statistik məlumatların olmaması geniş araşdırmalar aparmaqda məhdudiyyətlər törətmişdir.

***Açar sözlər:*** *Avropa Komissiyası, Ali Maliyyə Məhkəməsi, Avropa Birliyi, Bölgələr Komitəsi, yerli və regional məqamları, Avropa Mərkəzi Bankı və Avropa Pul İnstitutu, Ombudsman*

## Compare the local adminstration between in Azerbaijan and in European Union and make notes the pros and cons of both of them

**Summary**

While I was writing the article whic is called "Compare the local adminstration between in Azerbaijan and in European Union and make notes the pros and cons of both of them" at firslty I gave information about local adminstration in Azerbaijan and European Union and so we may analyze the similarities and differences between them. The lack of enough researches and literature about the municipalities in our country, not sharing reports open to the public about the municipality's work and information about how incomes is used, the lack of statistic information about with which criterias money is given to the municipalities from government and how they used this money did not let us to do extensive researches.

***Key words:*** *European Commission, Supreme Financial Court, European Union, regional committee, Local and regional issues, European Central Bank and European Monetary Institute, Ombudsman*

## Giriş

### Avropa Birliyində yerli idarəetmə (çox – səviyyəli dövlət idarəsi)

Avropa Birliyi və ya Avropa İttifaqı — 27 dövləti birləşdirən dövlətlərüstü və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilatdır. AB yeganə beynəlxalq təşkilatdır ki, özündə həm beynəlxalq təşkilat, həm də dövlət əlamətləri daşıyır, əslində isə formal olaraq heç biri deyil. Bəzi məsələlər birliyin ümumi institutları, bəziləri isə üzv dövlətlərin nümayəndələrinin razılaşması ilə qəbul edilir. Avropa Birliyi sülhü qorumaq, iqtisadi və sosial irəliləməni təmin etmək məqsədilə toplanmış 27 Üzv Dövlətdən ibarətdir. Birliyin içində ortaq qurumları olan üç İttifaq yer alır. Birincisi 1951-ci il tarixli Paris Anlaşması ilə qurulan Avropa Kömür və Polad Birliyidir. Daha sonra 1957-ci il tarixində Roma Anlaşması ilə Avropa İqtisadi Birliyi və Avropa Atom Enerjisi Birliyi (EURATOM) qurulmuşdur. İttifaqlar bu müddətin sonunda üzv dövlətlər arasındakı bütün daxili sərhədləri ləğv edərək vahid bir bazar qurublar.1992-ci ildə Maastriçdə imzalanan Avropa Birliyi Anlaşması ilə iqtisadi və pul birliyi formasında irəliləyən və məlum sahələrdə hökumətlərarası əməkdaşlığı əhatə edən bir Avropa Birliyi qurulmuşdur. Avropa Birliyini isə bənzəri olan iqtisadi birliklər və ya əməkdaşlıq elədiyi qurumlardan

fərqləndirən ən böyük xüsusiyyət təşkilati bünövrəsidir. Birliyi idarə edən bir sıra qurumlar mövcuddur.Avropa Parlamenti-Üzv dövlətlərin milli parlamentləriylə oxşar haqlara sahib olan Avropa Parlamenti AB xalqlarının demokratik siyasi iradəsini təmsil edir. Avropa Parlamentinin cavabdehlikləri bunlardır: Komissiya tərəfindən edilən qanun təkliflərini Şuraya da bildirərək (məsləhət üsulu, əməkdaşlıq üsulu, ortaq-qərar üsulu, Parlamentin fikir uyğunluğu) qanuniləşdirir. Bundan başqa hər il Dekabr ayında Avropa Birliyi büdcəsini (1995-ci ildə təxminən 80 milyard ECU) təsdiqləyir. Avropa Zirvəsi-Avropa Zirvəsi AB-yə üzv ölkələrin dövlət və hökumət başçılarıyla Avropa Komissiyası Başçısını qurulmuş olduğu 1974-cü ildən bəri ildə ən azı iki dəfə bir araya gətirir.Avropa İttifaqı Şurası -üzv ölkələrin Xarici İşlər Nazirlərindən ibarət olmaqla birlikdə gündəmdəki mövzuya görə ələ alınacaq mövzularla əlaqəli nazirlər səviyyəsində təmsilçilərdən də təşkil oluna bilər.Avropa Komissiyası-Qanun təklifləri hazırlayır, Parlament və Şuraya təqdim edir.Ali Maliyyə Məhkəməsi-Avropa Birliyi büdcəsinin qayda və məqsədlərə görə istifadə edilməsini təmin edir.Bölgələr Komitəsi-Avropa Birliyi anlaşmasıyla qurulmuşdur. Avropa İnvestisiya Bankı-1958-ci ildə Roma Anlaşması ilə Birliyin hədəflərini həyata keçirməsinə kömək edərək investisiyanı maliyyələşdirmək məqsədilə qurulmuşdur. Avropa Mərkəzi Bankı və Avropa Pul İnstitutu — Avropa Mərkəzi Bankı (ECB) Avropa Pul Birliyinin yaranmasından etibarən 1 oktyabr 1998-ci ildə fəaliyyətə başlamışdır. Ombudsman-Avropa Birliyi ölkələrində yaşayan şəxslərin, qurumların və şirkətlərin haqlarını hər hansı bir pis idarəetmə tətbiq olunması qarşısında qorumaqla vəzifələndirilmiş yoxlama qurumu və şikayət müraciəti olunan yer, yəni məqamdır."Yerli özünüidarə haqqında" Avropa Xartiyası Avropa Şurasında uzun illər göstərilmiş çoxsaylı təşəbbüslərin və aparılmış müzakirələrin kulminasiya nöqtəsidir. Avropada yerli özünüidarənin Avropanın bütün demokratik dövlətləri tərəfindən tanınan prinsipləri bəyan edən sənəd vasitəsilə qorunması və möhkəmləndirilməsi yerli özünüidarə orqanlarının uzun zamandan bəri mövcud olan arzusudur. İlk zamanlardan bu mətnin yerli özünüidarənin qorunmasında əsas rolu oynamışlar, yəni hökumətlər tərəfindən qəbul edilməli olunması qeyd edildi.Avropa Şurasının insan hüquqlarının müdafiəçisi və demokratiya prinsiplərinin carçısı kimi bu sənədin hazırlanması və qəbul edilməsi üçün ideal qurum olması göz qabağında idi. Üstəlik, 1957-ci ildən bəri o, yerli özünüidarə orqanlarının əhəmiyyətini qəbul etmiş və onlar üçün Avropa səviyyəsində təmsilçi orqan olan Avropa Yerli və Regional Hakimiyyətlərin Daimi Konfransı (AYRHDK) təsis etmişdir. AYRHDK tərəfindən 1981-ci ildə həyata keçirilmiş təşəbbüs daha münasib yanaşmaya sahib idi. Lakin, yerli özünüidarənin əhəmiyyəti və onun üzləşdiyi təhlükələrin təbiətini nəzərə aldıqda məcburi olmayan prinsiplərin sadə bəyannaməsinin kifayət etmədiyi qeyd edildi. Əksinə hökumətlər üzərlərinə məcburi xarakter daşıyan öhdəliklər almağa dəvət edilməli idilər. Konstitusiya müddəaları və milli inzibati ənənələr arasındakı fərqləri nəzərə almaq üçün lazım olan element yeni sənədin qoyduğu şərtlərin həddən artıq yumşaldılması ilə deyil hökumətlərə özlərini bağlı hiss etdikləri müddəalarla əlaqədar müəyyən sərbəstlik verərək daxil edilməli idi.Bu yanaşmanın məntiqi nəticəsi olaraq Nazirlər Komitəsinə AYRHDK-nın 126 (1981) saylı Qətnaməsi ilə birgə Avropa Konvensiyası kimi qəbul etmək təklifi ilə "Yerli özünüidarənin" Avropa Xartiyası layihəsi təqdim edildi. Nazirlər Komitəsi AYRHDK-nın təkliflərini Yerli özünüidarə orqanlarından məsul olan Avropalı nazirlərin 5-ci Konfransında müzakirə edilmələri üçün Regional və Bələdiyyə Məsələləri üzrə İcraçı Komitəyə (RBMİK) göndərildi. Gəldikləri nəticələrdə Luqanoda toplanan nazirlər"...Xartiyanın məcburi konvensiya şəklində olmasının vacibliyi və Xartiyanın məzmununun bəzi aspektləri ilə bağlı bəzi nazirlərin ifadə etdikləri fikirləri qeyd edərək bu xartiya layihəsinin yerli özünüidarənin prinsiplərinin müəyyən edilməsi istiqamətində əhəmiyyətli addım olduğunu hesab edirlər; Avropa Şurasının Nazirlər Komitəsindən Regional və Bələdiyyə Məsələləri üzrə İcraçı Komitəyə (RBMİK)Avropa Yerli və Regional Hakimiyyətlər Konfransı ilə birgə konfrans zamanı şəkli və məzmunu ilə bağlı təqdim edilmiş müşahidələri nəzərə alaraq onların gələcək konfransında təsdiq edilməyə göndərilməsi məqsədilə "Yerli özünüidarə ilə bağlı" Avropa Xartiyası layihəsinə lazımi düzəlişləri etməsini tapşırmağı xahiş edir.Beləcə, Nazirlər Komitəsi Xartiya layihəsini dərindən nəzərdən keçirən AYRHDK-ya səlahiyyət verdi. Luqano Konfransının nəticələrinə uyğun olaraq AYRHDK-nın nümayəndələri müzakirələrdə iştirak etdilər. AYRHDK tərəfindən nəzərdən keçirilmiş Xartiya layihəsinin mətni beləcə Yerli özünüidarə orqanlarından məsul olan avropalı nazirlərin 1984-cü ilin 6-8 noyabrında Romada keçirilmiş 6-cı

Konfransı zamanı təqdim edildi. Bu mətni nəzərdən keçirdikdən sonra nazirlər orada bildirilən prinsiplər barədə konsensusa gəldiklərini yekdilliklə ifadə etdilər Xartiyanın daşıyacağı hüququ formaya gəlincə nazirlərin əksəriyyəti konvensiyanın leyhinə olduqlarını bəyan etdi. Məşvərətçi Məclis və Romadakı nazirlər konfransının ifadə etdiyi fikirləri nəzərə alaraq Nazirlər Komitəsi 1985-ci ilin iyun ayında "Yerli özünüidarə haqqında" Avropa Xartiyasını konvensiya şəklində qəbul etdi. Xartiya təşəbbüsü ilk dəfə AYRHDK tərəfindən irəli sürüldüyü üçün konvensiyanın 15 oktyabr 1985-ci ildə AYRHDK-nın 20-ci plenar sessiyası münasibətilə imzalanmaq üçün açıq olacağı qərarına gəlindi.Yerli özünüidarə haqqında" Avropa Xartiyasının məqsədi vətəndaşa ən yaxın olan və ona gündəlik həyatı ilə bağlı qərarların qəbulunda effektiv şəkildə iştirak etmək fürsəti verən yerli özünüidarə orqanlarının hüquqlarını ölçmək və qorunmasında ümumi Avropa standartlarının olmamasını kompensasiya etməkdir.Xartiya Tərəfləri yerli özünüidarə orqanlarının siyasi, inzibati və maliyyə müstəqilliklərini təmin edən əsas qaydaları tətbiq etməyə məcbur edir. Bu, ərazi idarəetməsinin bütün səviyyələrində Avropa Şurasının yarandığı andan bəri müdafiə etdiyi prinsiplərə məna verməyin siyasi iradəsinin Avropa səviyyəsində təzahürüdür. Avropa Şurası məqsədi Avropanın demokratik vicdanını yaşatmaq və insan hüquqlarını sözün geniş mənasında müdafiə etməkdir. Xartiya yerli özünüidarə orqanlarının sahib olduqları özünüidarə dərəcəsinin əsl demokratiyanın yolunda əngəl ola biləcəyi düşüncəsini özündə təcəssüm etdirir.Xartiya üç hissədən ibarətdir. Birinci hissə yerli özünüidarənin prinsiplərini bəyan edən əsas müddəalardan təşkil olunub. O, yerli özünüidarə üçün konstiusional və hüquqi əsasın olmasını dəqiqləşdirir, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin anlayışını müəyyən edir və onların təbiəti və əhatə dairəsini idarə edən prinsipləri təyin edir. Digər maddələr yerli özünüidarə orqanlarının ərazi hüdudlarını mühafizə etmək, onlara inzibati strukturları və şəxsləri işə almaq imkanı baxımından özünüidarəni təmin etmək və yerli seçici mandatının icrasının şərtlərini müəyyən etməkləbağlıdır. İki vacib maddə yerli özünüidarə orqanlarının aktlarına inzibati nəzarəti məhdudlaşdırmaq və mühüm xarakter daşıyan muxtariyyətlərinə zərər verməyəcək şərtlərdə onlara yetərli maliyyə qaynaqlarını təmin etmək məqsədini daşıyır. Bu hissənin digər müddəaları yerli özünüidarə orqanlarının əməkdaşlıq etmək və dərnəklər qurmaq üçün sahib olduqları hüquqları və məhkəməyə müraciət edərək yerli özünüidarənin mühafizəsi ilə bağlıdır. İkinci hissədə Tərəflərin üzərlərinə aldıqları öhdəliklərin əhəmiyyətindən bəhs edən müddəalar mövcuddur. Hər bir üzv dövlətin hüquqi və institusional xüsusiyyətləri qarşısında əsas prinsiplərin qorunması və lazımi sərbəstlik arasında gerçək tarazlığı təmin etmək üçün o, Tərəflərə Xartiyanın bəzi müddəalarını onların bağlı olduqlarını hesab etdikləri müddəalar arasından çıxarmağa icazə verir.Burada söhbət bir tərəfdən hökuməti əsas narahat edən məsələ olan yerli özünüidarənin dövlətin özünün strukturu və təşkilatı ilə aidiyyəti olması faktının tanınması və digər tərəfdən də demokratik olan istənilən yerli özünüidarə orqanının riayət etməli olduğu minimum əsas prinsiplərin mühafizəsi məqsədi arasında kompromisdən gedir. Üstəlik, Tərəflərin öhdəlikləri maneələr aradan qalxdıqdan sonar genişləndirilə bilər. Xartiyada bildirilən yerli özünüidarə prinsipləri həmçinin hər bir üzv dövlətin yerli özünüidarə orqanlarının bütün səviyyə və kateqoriyalarına və lazımi dəyişikliklər edildikdən sonar regional səviyyədə ərazi hakimiyyət orqanlarına da tətbiq edilir. Bütün hallarda xüsusi vəziyyətləri nəzərə almaq üçün Tərəflərə bəzi yerli özünüidarə orqanlarını Xartiyanın tətbiq sahəsindən kənarlaşdırmaq icazələri var.Tərəflərə qanunvericilik müddəalarının və Xartiyanın müddəalarının tətbiqi ilə əlaqədar görülmüş tədbirlər haqqında bütün məlumatları vermək məcburiyyətindən başqa Xartiya özünün tətbiqi ilə bağlı nəzarət üçün instusionallaşmış sistem nəzərdə tutmur. Avropa Sosial Xartiyasının sisteminə bənzər beynəlxalq nəzarət sisteminin yaradılması haqqında bəhs edilmişdi. Amma, qəliz nəzarət sistemi olmadan da fəaliyyətin mümkün olduğu bildirildi. Çünki Nazirlər Komitəsinə birbaşa çıxışı olan AYRHK-nın Avropa Şurasında mövcudluğu Tərəflərin Xartiyaya əsasən üzərlərinə aldıqları öhdəliklərə riayət etmələrinə nəzarəti həyata keçirə bilərdi. Mətnin son hissəsi adətən Avropa Şurasının rəhbərliyi ilə hazırlanmış konvensiyalardakı müddəalara bənzəyən son müddəalardan ibarətdir. "Yerli özünüidarə haqqında" Avropa Xartiyası Avropa Şurasının müdafiə və inkişaf etdirməyi qarşısına məqsəd qoyduğu demokratiyanın sütünlarından biri olan yerli özünüidarənin prinsiplərini müəyyən edən və qoruyan ilk çoxtərəfli hüquqi sənəddir. Birgə Avropa dəyərlərinin qorunması və möhkəmləndirilməsinə töhfə verəcəyinə ümid edirik.

## Azərbaycandakı yerli idarəetmə

Azərbaycan Respublikasının 1991-ci il 18 oktyabrında yenidən əldə etdiyi müstəqillikdən əvvəl, xüsusi ilə son 2 əsrdə Çar Rusiyasının və SSRİ-nin hakimiyyəti altında olması ölkəmizdə idarəetmə sisteminin izlərini daşımış və qisməndə olsa daşımaqdadır. Müstəqillikdən əvvəl olan ölkə idarəetməsi, siyasi və iqtisadi islahatların formalaşması məhz Çar Rusiyası və SSRİ dövrlərində olan ölkə idarəetmə psixologiyası əsas təyin edici qüvvə olmuşdur. Buna görə də, Azərbaycanda istər biznes sahəsində, istərsə də ölkə və o cümlədən yerli özünü idarəetmə anlayışı bu iki fərqli idarəetmə qüvvənin şərtləri çərçivəsində formalaşmışdır. Bu iki dövrdən Azərbaycana miras kimi qalan və tətbiq edilən heç şübhəsiz ki,idarəetmədə "mərkəzçilik" olmuşdur. Bu səbəblə tarix boyu nəzər salsaq Azərbaycana məxsus güclü bir yerli idarəetmə düşüncəsi və praktikası olmadığını bariz şəkildə görə bilərik. XX əsrin sonlarında SSRİ-nin dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini yenidən bərpa etmək imkanını verdi. 1991-ci il oktyabrın 18-də AR-nın Ali Sovetin sessiyasında "Azərbaycan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul olundu. Beləliklə, ölkə səviyyəsində istər idarəetmə,istərsə də siyasi baxımdan yenidən inşa edilməsi prosesinə başlamış oldu.Yenicə müstəllik əldə etdikdən sonra yeni konstitusiyanın hazırlanması zəruriyyəti yaranmışdı. Bunun üçün xüsusi komissiya yaradılaraq, konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmiş və yeni konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqilliyimizin ilk konstitusiyasının əsası qoyulmuş oldu. Konstitusiyaya görə bir necə idarəetmə və siyasi baxımdan məsələlərin təməlləri qoyulmaqla yanaşı, həmçinin YÖİ, yəni bələdiyyə ilə bağlı da əsaslı işlərin görülməsi ilə bağlı qanunlar, prinsiplər işlənilib hazırlandı. Ulu öndər Heydər Əliyev, bələdiyyələrin yaradılması zamanın tələbi və demokratiyanın ifadəsi kimi qiymətləndirərək qeyd edirdi ki, YÖİ-nin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsidir və demokratik dünyəvi dövlət qurmaq prosesinin bir hissəsidir.Beləliklə, qəbul edilmiş konstitusiya ilə yerli özünüidarəetmə orqanlarının ilkin təməlləri atıldı.İlk bələdiyyə seçimlərini 1999-cu ilin 12 dekabrında reallaşdıraraq yenidən müstəqillik əldə etdikdən sonar ilk dəfə olaraq bələdiyyələrin əsası qoyuldu. İlk bələdiyyə seçkiləri zamanı ümumi səsvermədə 4 milyon 312 min 265 ölkə seçicilərindən yalnız 52,6 faiz iştirak etmişdir və bəzi dairələrdə isə seçkilərin nəticələri seçicilərin fəallığının zəifliyinə və ya qanunvericilik pozuntularına görə ləğv olunmuşdu. Lakin, aparılan işlər nəticəsində məlum oldu ki, bələdiyyələrin say çoxluğu var və bu həm bələdiyyələrin fəaliyyətinə, həm də həyata keçirdiyi lahiyələrin həcminə mənfi mənada təsir göstərirdi. Buna görə də, müəyyən təkliflər nəticəsində bir çox bələdiyyələrin birləşdirilməsi, ləğv edilməsi və yenilərinin inşa edilməsi ilə əsaslı işlər görüldü. Belə ki, 2000-ci il iyunun 25-də Bakı şəhəri Nərimanov rayon bələdiyyəsinə, 2002-ci il noyabrın 2-də isə bir neçə bələdiyyələrdə əlavə seçkilər keçirildi və bu seçkilər 963 seçki məntəqəsində həyata keçirildi. Növbəti yəni ikinci bələdiyyə seçkiləri 2004-cu il dekabrın 17-də baş tutmuşdur. Belə ki, əksər ərazilərdə bələdiyyələrin iriləşdirilməsi prosesi baş verdi, yeni bələdiyyə bölgüsü sovet dönəmindəki yerli ərazi inzibati vahidlərin miqyasına yaxınlaşdırıldı. 2009-cu il bələdiyyə seçkilərinə kimi aparılan işlər nəticəsində də məlum oldu ki, bələdiyyələrin say çoxluğu var və buna ölkəmizdə bələdiyyələrin sayı 1718-ə kimi endirilmişdir. 2009-cu il bələdiyyə seçkilərində ölkə üzrə seçici siyahısına daxil edilmiş 4 milyon 612 min 727 seçicidən 32,04 faizi səsvermədə iştirak etmişdir.Ölkəmizdə sayca dördüncü bələdiyyə seçkiləri 2014-cü il dekabrın 23-də keçirilmişdir. Bu seçkilər zamanı ölkə üzrə bələdiyyələrin birləşdirilməsi üçün AR-nın 30 may 2014-cü il "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" qanunu ilə 28 seçki dairəsi üzrə 110 bələdiyyə ləğv olunub və respublika üzrə bələdiyyələrin sayının 1607 olduğu müəyyənləşdirilmişdir. Azərbaycanda yerli idarəetmə sistemi bir sıra ölkələrdən fərqli olaraq, əhalinin öz təşəbbüsü ilə deyil, hakimiyyət orqanlarının təşəbbüsü ilə formalaşmışdır. Yerli idarəetmə demokratik dövlət quruluşunun tərkib hissəsidir və əsas məqsədi yerli əhalinin gündəlik həyatını yaxşılaşdırmaq, onlara xidmət etməkdir. Bələdiyyə qanunla müəyyənləşdirilmiş sərhədlər çərçivəsində seçimlə idarəçiliyə gələn yerli idarəetmə növüdür.Azərbaycanda bələdiyyələr orqanlarının formalaşması və yaranması əskmərkəzləşdirmə istiqamətində atılmış addımdır və yarandığı dövrdən indiyə qədər özünəməxsus inkişaf yolunu keçmişdir. Ölkəmizdə bələdiyyələrin formalaşma prinsipləri 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş AR-nın Konstitusiyanın yerli özünüidarəetmə adlandırılan

dördüncü bölməsində əks olunmuşdur. Bu bölmədə yerli özünüidarənin təşkili, səlahiyyətləri, qərarları və müstəqilliyinin təminatı məsələləri nizama salınmışdır. Lakin, Konstitusiyanın qəbul edilməsinə baxmayaraq, ölkədə bələdiyyə institutunun formalaşmasını dərhal həyata keçirmək mümkün olmadı. Bunun üçün ilk əvvəl əhalidə və hakimiyyət orqanlarında yerli demokratiya haqqında təsəvvür yaratmaq lazım idi.Bu səbəbdən də, ölkəmizdə bələdiyyələrə ilk seçkilər Konstitusiyanın qəbul edilməsindən dörd il sonra, yəni 12 dekabr 1999-cu il tarixdə baş tutmuşdur. Yerli özünüidarəyə dair qanunvericiliyin intensiv inkişafı da elə bu ildən sonrakı dövrə təsadüf etmişdir. Ölkəmizdə yerli özünüidarə elə bir sistemidir ki, qanunverіçilik çərçivəsində bərabərlik əsasında fəaliyyət göstərərək yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etməli, verilmiş səlahiyyət və funksiyalarını qanunla müəyyən edilmiş qaydada səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət bələdiyyələr tərəfindən həyata keçirilməlidir. YÖİ-nin bir forması olan və dövlət orqanları sisteminə daxil olmayan bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olmalıdır. Qanunla müəyyənləşdirilmiş səlahiyyətləri və yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyələr tərəfindən bələdiyyə qulluqçuları təşkil edilməlidir. Qanunvericiliyə əsasən, bələdiyyələrin idarə edilməsi bələdiyyə məclisi,başqa sözlə bələdiyyə iclası tərəfindən qəbul edilmiş qərarlar vasitəsiylə həyata keçirilir. Bələdiyyə iclası bələdiyyə üzvlərinin yarıdan çoxunun iştirak etdiyi təqdirdə səlahiyyətli olur və iclasın keçirilməsi tarixi isə bələdiyyə üzvləri 5 gün əvvəl iclas barədə məlumatlandırılır. Bələdiyyə məclisi tərəfindən formalaşan bələdiyyə üzvləri, bələdiyyə seçkilərində yerli əhali tərəfindən seçilmiş şəxs nəzərdə tutulur. Bələdiyyə üzvlərin səlahiyyət müddəti 5 il müddət ərzində onun səlahiyyətləri təsdiq edildiyi gündən başlanır və bələdiyyənin yeni tərkibinin işə başladığı gün bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilir. Qanunvericiliyə görə bələdiyyə seçkilərində iştirak etmək üçün seçkilər günü 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan və bələdiyyə üzvü olmaq üçün isə seçki günü 21 yaşı tamam olan və yaşı 21-dən yuxarı olan ölkə vətəndaşları olmalıdırlar. Lakin, "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" AR qanununda bələdiyyə üzvü seçilmək hüququna malik olmaq üçün bəzi məhdudiyyətlər qoyulmuşdur. Belə ki, icra hakimiyyətində çalışan vəzifəli şəxslər, hakimlər, hüquq-mühafizə orqanlarının işçiləri, din xadimləri, hərbi qulluqçular bələdiyyə üzvü seçilə bilməzlər. Əgər bu şəxslər bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınarsa, 3 gün ərzində onlar tutduqları vəzifədən azad olunmalı və bu barədə müvafiq sənədi ərazi seçki komissiyasına təqdim etməlidirlər. Əks halda, bu qaydalara əməl olunmazsa həmin şəxslərin qeydiyyatı ləğv edilir. Bələdiyyə üzvlərini yerli əhali bilavasitə gizli, şəxsən öz iradəsi ilə müstəqil şəkildə seçmək hüququna malikdir. Bundan başqa, bələdiyyə seçkilərinin keçiriləcəyi tarixi AR-nın prezidentinin fərmanı nəticəsində təyin olunur və hər bir vətəndaşın səsvermədə iştirak edə bilməsi üçün həftənin bazar günü keçirilir. AR Konstitusiyanın dördüncü bölmə YÖİ-yə ayrılmışdır. Həmin bölmənin IX fəslinin 142-ci maddəsində göstərilir ki, ölkəmizdə yerli özünüidarəni bələdiyyələr tərəfindən həyata keçirilir və bələdiyyələrin fəaliyyəti isə hər 5 ildən bir keçirilən seçkilər əsasında formalaşır.Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddənin 2-ci bəndində qeyd edilir ki, həm qanunvericilik, həm də icra hakimiyyəti tərəfindən bələdiyyələrə əlavə səlahiyyətlər verilir və bu səlahiyyətlərini tam yerinə yetirmək üçün kifayət qədər maliyyə vəsaitinin ayrılması imkanı da yaradılır. Lakin, bu kimi fəaliyyətlərin icrasını izləmək, nəzarət etmək müvafiq olaraq qanunvericilik və icra hakimiyyəti həyata keçirir. Bunun üçün isə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana aprel ayının 1-nə kimi hesabat verirlər.Müstəqillikdən sonra Azərbaycan cəmiyyəti Avropa dəyərlərini əldə rəhbər tutaraq, Avropa təcrübəsindən bəhrələnərək tərəqqi etmək, müasir cəmiyyət qurmaq və demokratiya prinsiplərinə əməl etmək üçün Avropa Şurasına 2001-ci yanvar ayının 25-də tamhüquqlu şəkildə üzv olmuşdur. Avropa Şurası həm yerli və həm də regional səviyyələrdə demokratiyanın rolunu hər zaman yüksək dəyərləndirərək yerli özünüidarənin formalaşması və inkişafı üçün əsas prioritet istiqamətlərindən biri kimi qəbul etmişdir. Avropa Şurası tərəfindən 15 oktyabr 1985-ci il Fransanın Strasburq şəhərində qəbul olunmuş "Avropa YÖİ Xartiyası", inkişaf etmiş avropa ölkələrinin bələdiyyə hüququnun əsas mənbələrdən biridir və onun əsas məqsədi YÖİ orqanlarının hüquqlarının təmin edilməsi və müdafiəsidir. Avropa Xartiyası, keyfiyyətli YÖİ-nin müstəqil və demokratiya üçün vacibliyini irəli sürmüşdür. Ölkəmiz, Avropa Xartiyasının YÖİ haqqında tələb etdiyi müdəaları 25 dekabr 2001-ci ildə rəsmi şəkildə imzalayaraq qəbul etmişdir.Avropa Xartiyası, prembula, 2 hissədən ibarət toplam 18 maddəni özündə cəmləşdirən hüquqi sənəddir. Həmin

qanunun 3-cü maddəsində qeyd edilir ki, YÖİ orqanları qanun çərçivəsində və öz məsuliyyətləri daxilində əhalinin rifahı naminə ictimai işlərin xeyli hissəsinə nəzarət etmək və onları idarə etmək hüququna malikdirlər. Yerli əhaliyə xidmət etmək üçün göstərilən bu hüquqları ümumi seçkilər nəticəsində seçilmiş üzvlərdən ibarət və sərəncamında məsuliyyətli icra orqanları olan şura, yaxud məclis tərəfindən həyata keçirilir.Qanunun 9-cu maddəsi bələdiyyələrin maliyyələşmə mənbələrinə ayrılmışdır. Həmin maddəyə əsasən qeyd edilir ki, bələdiyyələr öz funksiyalarını yerinə yetirə bilmələri üçün kifayət qədər maliyyə mənbələrinə malik olmalı, həmin vəsaitlər barədə konstitusiya ilə yaxud qanunla onlara verilən səlahiyyətlər çərçivəsində sərbəst sərəncam verməkdə müstəqil olmalıdır. Bələdiyyələrin maliyyə mənbələrinin bir hissəsi ən azı yerli rüsum və vergilər hesabına formalaşmalı, maliyyəsi zəif olan bələdiyyələrə isə dövlət tərəfindən maliyyə yardımı ayrılmalı, subsidiyaların verilməsi isə yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində siyasət seçimində əsas sərbəstliyinə ziyan vurmamalıdır. Bundan başqa yerli özünüidarə orqanları qanunvericiliyə riayət etməklə milli borc kapital bazarından istifadə edə bilməlidir. Xartiyanın 12-ci maddəsində qeyd edilir ki, bu hüquqi sənədi imzalamış hər bir tərəf bu maddənin 1-ci bəndinin müddəalarına uyğun olaraq seçdiyi bəndlər barədə AŞ baş katibinə bildiriş göndərməli, bu maddənin 1-ci hissəsinin ən azı iyirmi bəndinə riayət etməyi öhdəsinə götürməli, onlardan ən azı on bənd qeyd edilən bəndlər arasından seçilməlidir. Əgər gələcəkdə hələ qəbul etmədiyi istənilən digər bəndinə riayət etməyi öhdəsinə götürərsə, istənilən vaxt baş katibə bildiriş göndərə bilər və bildirişi baş katibin aldığı tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir. Həmçinin AR bəyan etmişdir ki, işğal olunmuş ərazilər azad olunana qədər həmin ərazilərdə Xartiyanın şərtlərini yerinə yetirilməsinə təminat vermək AR-nın iqtidarında deyil.

## Nəticə

Qeyd edilən fikirləri ümumiləşdirərək deyə bilərik ki, 15 mart 2002-ci ildə qəbul olunmuş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş Əsasnamə ilə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında"Azərbaycan Respublikası Qanununa uyğun olaraq mülkiyyətə, istifadəyə və icarəyə vermək üçün bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları müəyyən edilmişdir. Bu Əsasnamənin qəbulu və 2002-ci ildə bir çox qanunlara edilmiş əlavə və dəyişikliklər ilə bələdiyyələrin mövcud qanunverici bazası təkmilləşdirilmişdir.2003-cü ilədək mövcud bələdiyyə qanunvericiliyin təhlili göstərir ki, Azərbaycanda yerli özünüidarəetmənin təşkili Avropa Xartiyasında əks olunmuş prinsiplərə və beynəlxalq normalara uyğundur. Bundan başqa, yerli özünüidarəetmə sisteminin səmərəli fəaliyyətinin təmin olunması üçün yerli özünüidarəetmənin formalaşdırma mexanizmlərinin, o cümlədən nəzarət sisteminin, xüsusilə ictimai nəzarətin və inzibati nəzarətin əhəmiyyəti böyükdür.

Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə həm dövlət, həm də ictimai nəzarət mexanizmlərini inkişaf etdirmək,bələdiyyələrin fəaliyyətinin səmərəliliyinə nail olmaq, yerli özünüidarəetmə sistemini möhkəmləndirmək və inkişaf etdirmək üçün yerli səviyyədə bu orqanların fəaliyyətinə nəzarət sistemi tətbiq edilir. Bu mənada, ölkədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirilməsi məqsədilə 13 may 2003-cü ildə qəbul edilmiş "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununun I maddəsində göstərildiyi kimi, "inzibati nəzarət - bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması məqsədilə həyata keçirilən fəaliyyətdir".Bu Qanun Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasının 8-ci maddəsinin (Yerli özünüidarə orqanlarının fəaliyyəti üzərində inzibati nəzarət) tələblərini özündə əks etdirir.17 iyun 2003-cü ildə qəbul olunmuş "Bələdiyyələrin vergi xidməti orqanı haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Əsasnamə bələdiyyələrin vergi xidməti orqanının

fəaliyyətinin ümumi əsaslarını müəyyənləşdirir, onun yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyiciləri ilə qarşılıqlı münasibətlərini tənzimləyir. 12 oktyabr 2003-cü ildə qəbul olunmuş "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanunu ilə "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası Qanunlarına dəyişikliklər edilmişdir. 2003-cü ildə həmçinin "Bələdiyyələrin birgə fəaliyyəti,birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə müvafiq olaraq bir sıra yeni bələdiyyələr yaradılmışdır. Aparılmış araşdırma nəticəsində bu nəticəyə gəlmək olar ki, 2004-cü ildən etibarən yerli özünüidarəetmə orqanları barədə qəbul olunmuş qanunların böyük əksəriyyəti əvvəllər qəbul olunmuş qanunlara əlavə və dəyişikliklər edilməsindən ibarət olmuş, bələdiyyələrin fəaliyyətinin daha da genişləndirilməsinə və bələdiyyələr haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsinə xidmət etmişdir.Ümumilikdə, 1999-cu ildən 2014-cü ilədək olan müddətdə Bələdiyyələr haqqında 80 qanun qəbul olunmuşdur. 2014-cü ilə kimi Azərbaycan Respublikası Prezidenti tərəfindən bələdiyyələr haqqında 31 fərman imzalanmışdır. 2014-cü ilə kimi Azərbaycan Respublikası Prezidenti tərəfindən bələdiyyələr haqqında 44 sərəncam imzalanmışdır.Qeyd olunanlardan başqa, müxtəlif dövlət orqanları tələfindən bələdiyyələr haqqında 30-dək təlimat və əsasnamələr hazırlanmışdır.

## References

1. The Constitution of the Republic of Azerbaijan, 1995
2. İbragimov İ. (2014), International experience of municipal management, Baku. "Ziya"
3. İbragimov İ. (2018), Municipal Administration, Baku. "Tabib"
4. Salimzade M.I., Khalilov G.R, (2010), Y.O.i: concept, experience, cooperation, legal bases. Baku, "Science and education",
5. Yusifov S., Ismayilov V. and Huseyn A. (2016), Legal and financial bases of local self-government.

## İnternet resursları

1. www.e-gov.az/az/content/read/2
2. www.e-qanun.az
3. www.files.preslib.az
4. www.president.az
5. www.msk.gov.az
6. www.stat.gov.az
7. www.taxes.gov.az
8. www.amerikaninsesi.org/a/3755784.html
9. www.bbc.com/azeri/azerbaijan-37762070
10. www.belediyye.info

**Rəyçi: dos. əv. C.Cahangirli**

Göndərilib: 09.11.2021 Qəbul edilib: 28.11.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/30-36

**Qətibə Elsəvər qızı Rüstəmova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
bakalavr tələbəsi
rustamovaqetibe@gmail.com

# AZƏRBAYCANDA YERLİ HAKİMİYYƏTİN İDARƏETMƏSİ İLƏ GÜRCÜSTANDAKI YERLİ İDARƏETMƏ İLƏ MÜQAYİSƏSİ

**Xülasə**

"Azərbaycanda yerli hakimiyyətin idarəetməsi ilə Gürcüstandakı yerli idarəetməni müqayisə edin və müsbət və mənfi cəhətləri qeyd edin" adlı məqaləni yazarkən əvvəlcə Azərbaycanda və Gürcüstanda yerli idarəetmə haqqında məlumat verdim, bundan da iki dövlət arasındakı idarəetmədə fərqli və oxşar cəhətlər aydın olur.

Ölkəmizdə bələdiyyələr haqqında geniş araşdırmaların və ədəbiyyatların zəngin olmaması, bələdiyyələrin gördüyü işlərin və büdcəyə daxilolmalarının hansı istiqamətdə sərf olunduğunu əks etdirən hesabatılığın ictimaiyyətə açıq şəkildə paylaşılmaması, dövlət tərəfindən hər bir bələdiyyəyə ayrılan pul transferlərin hansı meyarlarla verildiyini, bələdiyyələrin həmin vəsaitlərin hansı yöndə xərclədiyini əks etdirən sənədlərin və digər statistik məlumatların olmaması geniş araşdırmalar aparmaqda məhdudiyyətlər törətmişdir.

***Açar sözlər:*** *bələdiyyə, regional administrasiya, təyinatlı komissarlar, özünü idarə edən icma, yerli hökumət*

## Compare local adminstrations in Azerbaijan with local government in and make notes the pros and cons

**Summary**

While I was writing the article "Compare local government in Azerbaijan with local government in Georgia and make notes the pros and cons", at firstle I gave information about local government in Azerbaijan and Georgia, and so we may analyze the similarities and differences between these two countries.

The lack of enough researches and literature about the municipalities in our country, not sharing reports open to the public about the municipality's work and information about how incomes is used,the lack of statistic information about with which criterias money is given to the municipalities from government and how they used this money did not let us to do extensive researches.

***Key words***: *municipality, regional administration, appointed commissioners, self-governing community, local government*

## Giriş

### Azərbaycanda yerli hakimiyyətin idarəetməsi

Azərbaycan Respublikasının 1991-ci il 18 oktyabrında yenidən əldə etdiyi müstəqilliklə ölkə səviyyəsində istər idarəetmə, istərsə də siyasi baxımdan yenidən inşa edilməsi prosesinə başlamış oldu. Ötən 18 ildə bələdiyyələr bir struktur olaraq cəmiyyətdə özünü tam da müsbət mənada tanıda bilməmişdir və bu illər ərzində isə çox böyük işlər görülə bilərdi.

Ölkəmizdə bələdiyyələr özünü idarə orqanı kimi özünü təsdiq edə bilmək üçün yerli əhəmiyyətli problemlərin həllində güc nümayiş etdirə bilmirlər. Təbii ki, bələdiyyələrin ən böyük problemi gəlirlərin formalaşmasında görülməkdədir. Bələdiyyələr sözdə yox realda da, özünü idarə edən qurum olması üçün konkret gəlir yerləri müəyyənləşdirməli, müəyyən vergilər hesabına gücü və imkanları genişlətməlidir. Buna görədə yerli əhəmiyyətli məsələri yerinə yetirmək, yerli əhaliyə layiqincə xidmət göstərmələri üçün maliyyəsi və iqtisadi durumu kifayət qədər qənaətbəxş olmalıdır.

"Bələdiyyə seçkiləri haqqında" və "Bələdiyyələrin statusu haqqında" qanunlar qəbul edilmiş ilk yerli özünüidarəetmə qanunları olmuşdur. "Bələdiyyə seçkiləri haqqında" Qanun ümumi prinsipləri, seçki komissiyalarının fəaliyyətini tənzimləyən qaydaları, seçici siyahılarının tərtib edilməsi prosedurlarını və namizədlər üçün seçki hüququna dair tələbləri müəyyən edir. "Bələdiyyələrin statusu haqqında" Qanun bələdiyyə orqanlarının rolunu və strukturunu tənzimləyir, hüquqi və maliyyə muxtariyyətinin dövlət təminatlarını müəyyən edir. Qanunda sosial müdafiə, sosial-iqtisadi inkişaf və yerli ekologiya ilə bağlı bələdiyyə proqramlarının qəbulu və icrasına xüsusi diqqət yetirilir. O, həmçinin bələdiyyə orqanlarına və vəzifəli şəxslərə, vətəndaşların iştirak formalarına, bələdiyyələrin iqtisadi əsaslarına, bələdiyyə mülkiyyətinə və yerli büdcəyə aid maddələrdən ibarətdir. Bələdiyyə idarəetməsinə aid digər normativ hüquqi sənəd Nümunəvi Bələdiyyə Nizamnaməsidir. Bu sənəd ərazi sərhədləri, bələdiyyə məclisləri, şuraların daimi və müvəqqəti komissiyaları, icra hakimiyyəti orqanları və inzibati prosedurlar kimi bütün bələdiyyə nizamnamələrinə daxil edilməli olan ümumi məsələləri müəyyən edir. "Bələdiyyə qulluğu haqqında" Qanun bələdiyyə işçilərinin fəaliyyətini, onların hüquqlarını, vəzifələrini, əmək şəraitini və sosial təminatlarını tənzimləyir, icra aparatının strukturunu və bələdiyyə qulluğunun təşkilini müəyyən edir.Bələdiyyələrin maliyyəsinin əsasları qanunlar üçlüyü ilə müəyyən edilir: "Bələdiyyələrin mülkiyyətinə verilməsi haqqında", "Bələdiyyələrin maliyyəsi haqqında" və "Bələdiyyələrin ərazisi və torpaqları haqqında". Aktivlərin verilməsi haqqında Qanun bələdiyyə mülkiyyətinin müəyyən edilməsi və bələdiyyə mülkiyyətinə verilməsi üçün standartlar müəyyən edir. "Bələdiyyələrin maliyyəsi haqqında" Qanun yerli maliyyənin prinsiplərini, yerli büdcənin əsaslarını və yerli şura ilə yerli icra hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünü müəyyən edir. Bu qanun yerli büdcələrin qəbulu, icrası və monitorinqi ilə bağlı hüquqi məsələləri də tənzimləyir. "Bələdiyyələrin ərazisi və torpaqları haqqında" qanun Azərbaycanda bütün bələdiyyələrin və onların ərazilərinin siyahısı ilə birlikdə bələdiyyələrin hüdudlarını müəyyən edir (13 iyun 2000-ci il). Bu qanuna əsasən,Dövlət Torpaq Komitəsi və dövlət idarəetməsinin yerli bölməsi bələdiyyələrin ərazilərini və bələdiyyələrə veriləcək torpaqları aydın şəkildə göstərən şəhərsalma və tikinti sənədlərini tərtib edir. Bu sənədlər daha sonra yerli hökumətlərə təqdim olunur.

Konstitusiyanın 124-cü maddəsinə və 1999-cu il iyunun 16-da qəbul edilmiş və sonradan yeni normativ-hüquqi aktlarla dəyişdirilmiş "Yerli icra hakimiyyəti orqanları haqqında" Qanuna əsasən bu orqanların rəhbəri aşağıdakı funksiyaları yerinə yetirməlidir:

•Azərbaycan prezidentinin sərəncamlarını yerinə yetirir;

•Azərbaycan Prezidentinin təsdiq etdiyi dövlət proqramlarını, habelə yerli proqramları həyata keçirir;

•yerli dövlət idarəetmə orqanlarını, xidmətlərini, müəssisə və təşkilatlarını yaradır və ləğv edir; onların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;

•mövcud qanunvericiliyə zidd olan sənədləri ləğv etmək;

•qanunvericiliklə müəyyən edilmiş qaydada seçkiləri, ümumxalq referendumlarını və ictimai müzakirələri təşkil edir;

•yerli inkişafla bağlı məsələlər və təklifləri müvafiq icra hakimiyyəti orqanlarına təqdim etmək;

•qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Konstitusiyanın 9-cu fəslində bələdiyyələrin hüquqi statusu, yerli özünüidarəetmə orqanlarının növləri, onların əsas səlahiyyətləri və digər rəsmi qurumlarla münasibətləri kimi yerli özünüidarənin əsas məsələləri öz əksini tapmışdır. Konstitusiyaya uyğun olaraq bələdiyyələrə aşağıdakı funksiyalar verilir:

- bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, onların səlahiyyətlərinin itirilməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada səlahiyyətlərinə xitam verilməsi;
- bələdiyyənin daxili əsasnamələrinin təsdiqi;
- bələdiyyə sədrinin, onun müavinlərinin, daimi və digər komissiyaların seçkiləri;
- yerli vergi və rüsumların müəyyən edilməsi;
- yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiqi;

- bələdiyyə əmlakına sahiblik, ondan istifadə və sərəncam vermək;
- Yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbulu və həyata keçirilməsi;
- İqtisadi inkişafın yerli proqramlarının qəbulu və həyata keçirilməsi;

Azərbaycanda sosial-iqtisadi funksiyaların əksəriyyəti LEA-ların səlahiyyət dairəsinə düşür. Bəzi məsələlərdə LEA-lardan bələdiyyələrin rəy və təkliflərini nəzərə almaq tələb olunur. Bununla belə, dövlət büdcəsindən maliyyələşmə birbaşa MM-ə getdiyindən və dövlətə təkliflərin verilməsində bələdiyyələr deyil, hakimiyyətin bu qolu cavabdeh olduğu üçün bələdiyyələrin rolu məhduddur. Yenə də bu işdə ən böyük problem LEA və bələdiyyələrin düzgün müəyyən edilməmiş rol, məsuliyyət və səlahiyyətləridir. Beləliklə, mövcud çərçivə bələdiyyələrə "Bələdiyyələrin statusu haqqında" Qanunla onlara verilmiş vəzifələrin əhəmiyyətli bir hissəsi ilə bağlı cüzi mülahizə hüququ verir

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyələrə qərar qəbul etmək, o cümlədən referendum keçirmək səlahiyyəti verilir. Bələdiyyələrin ictimai məsələlərin həyata keçirilməsində səlahiyyət dairəsi məhduddur və əksər dövlət xidmətləri və onların icrası və ya tənzimlənməsi birbaşa dövlət orqanlarının səlahiyyətləri çərçivəsindədir. Azərbaycanın müstəqillik əldə etdiyi 24 il ərzində dövlət idarəçiliyində heç bir əsaslı islahatlar aparılmayıb. Nə bələdiyyələr, nə də yerli icra hakimiyyəti orqanları qərar qəbul etməkdə müstəqilliyə malik deyillər. Maliyyə, eləcə də siyasi və inzibati səlahiyyətlərin olmaması səbəbindən bələdiyyələr yerli məsələlərlə bağlı qərar verə bilmirlər. LEA-lar müstəqil qərarlar qəbul edə bilməzlər və qərar qəbul etməzdən əvvəl adətən mərkəzi hökumətlə məsləhətləşirlər.

## Gürcüstandakı yerli idarəetmə

Gürcüstanda bələdiyyələr 1995-ci ildə qəbul edilmiş Konstitusiyadan dərhal sonra yaranmağa başlasa da, yerli özünüidarəetmə sisteminin güclənməsi, əksmərkəzləşmə islahatlarının dərinləşməsi 2003-cü il "qızılgül inqilabı"ndan sonra baş verdi. Saakaşvilinin hakimiyyətinin ilk illərindən başlayaraq bələdiyyələrin səlahiyyət və maliyyə imkanlarının genişlənməsi istiqamətində addımlar atıldı, ən ciddi yenilik onun hakimiyyətinin son ilində – 2013-cü ildə Konstitusiyaya dəyişiklik nəticəsində həyata keçirildi. Həmin dəyişiklik nəticəsində bələdiyyələrin status və səlahiyyətləri, yerli idarəetmədə rolu dəqiqləşdirildi. Konstitusiyada qeyd olunur ki, bələdiyyələr məxsusi və dövlət qurumları tərəfindən həvalə edilmiş səlahiyyətlərə malikdirlər, müvafiq qanunvericiliklə müəyyən edilmiş məxsusi səlahiyyətlər müstəsna olmalıdır (yəni bələdiyyələr üçün müəyyən edilmiş səlahiyyət başqa orqanlara ayrıla bilməz) Konstitusiyaya əsasən dövlət orqanları uyğun həcmdə maliyyə təminatı ayırmadığı istiqamətlər üzrə səlahiyyətləri bələdiyyələr üçün müəyyənləşdirə bilməz. Sonra Gürcüstanda Yerli Özünüidarəetmə Məcəlləsi də qəbul edildi. Yeni qanunvericiliyə əsasən "yerli hökumət" dedikdə bələdiyyələr nəzərdə tutulur. Belə ki, Məcəllənin 2-ci maddəsinə görə, vətəndaşlar yerli problemlərin həllini özlərinin seçdiyi yerli hakimiyyətlər vasitəsilə həyata keçirirlər. Bu təsisatlar 2 səviyyədə mövcuddur: 1) özünü idarə edən icmalar (rayon miqyaslı bələdiyyələr); 2) özünü idarə edən şəhərlər (qanunvericiliklə şəhər statusuna malik inzibati ərazi vahidləri üzrə yaradılan bələdiyyələr.)

Gürcüstanda özünüidarəetmə Gürcüstan Konstitusiyasına, Avropa Yerli Özünüidarəetmə Xartiyasına (Gürcüstan tərəfindən 2004-cü ildə ratifikasiya olunub) və Gürcüstanın yerli özünü idarəetmə haqqında üzvi qanununa əsasən təşkil olunub. Acarıstan Muxtar Respublikasında o, daha sonra Acarıstan Muxtar Respublikasının statusu haqqında Gürcüstanın Konstitusiya Qanunu ilə tənzimlənir. Gürcüstan qanunu Abxaziya və Cənubi Osetiyanın separatçı qurumlarını işğal olunmuş ərazilər kimi müəyyən edir və burada özünüidarə məsələsi Gürcüstanın suverenliyi bərpa edildikdən sonra həll edilməlidir. Yerli özünüidarə orqanlarının azad sənaye zonaları üzərində yurisdiksiyası yoxdur. Gürcüstan hökuməti müvafiq bələdiyyələrlə əvvəlcədən məsləhətləşmədən sonra və ya onların tələbi ilə parlamentin təsdiqi ilə bələdiyyələri yarada, birləşdirə və ya ləğv edə, habelə onların sərhədlərini dəyişə bilər. Bələdiyyələrin bayraq və gerb kimi öz rəmzləri var, dizayn ilə bağlı məsləhətləşmələr təsdiq edilir. Bütün bələdiyyələrdə rəsmi dil gürcü dilidir. Bələdiyyələr öz büdcələrini, əmlaklarını, təbii sərvətlərini, yerli vergiləri idarə etmək və yerli infrastrukturu idarə

etmək hüquqlarına malikdirlər.Bələdiyyə səviyyəsində özünüidarə orqanları nümayəndəsi şurası vardır,ona rəhbərlik edən sakrebulo dörd il müddətinə seçilir və icra hakimiyyəti, bələdiyyə başçısı birbaşa dörd il müddətinə seçilir.

Tbilisi həm də özünüidarə edən şəhərdir (bələdiyyə), o, daha sonra milli paytaxtın xüsusi hüquqi statusuna malikdir. Əvvəlki sistemdə yalnız Tbilisi şəhərinin meri şəhər əhalisi tərəfindən birbaşa seçilirdi, digər şəhərlərdə isə əhalinin səsi ilə formalaşan şuraların üzvləri arasından müəyyən olunurdu. İlk dəfə 25 iyun 1998-ci ildə postsovet Gürcüstanında yerli özünüidarə orqanlarına ümumilikdə altı seçki keçirilmişdir Yeni qanunvericiliyə uyğun olaraq yerli özünüidarə statusu qazanmış bütün şəhərlərin merləri əhali tərəfindən birbaşa seçilir. Şura üzvləri partiya siyahısı ilə seçilir və səsvermədə iştirak edənlərin azı 4%-nin səsini alan partiyalar yerli parlamentdə mandat qazanmış olurlar. Hazırda Gürcüstanda yerli özünüidarə hüququ olan 5 şəhər (Tbilisi, Kutaisi, Rustavi, Poti və Batumi), 59 icma bələdiyyəsi var.

Şəhər və icma bələdiyyələri eyni hüquqla yerli özünüidarə statusuna sahibdir. Lakin onlar arasında bir əhəmiyyətli fərq var: adı çəkilən 5 şəhərdə bələdiyyələr unitar struktura malikdir və vahid bir ərazinin yerli özünüidarə orqanıdır. Lakin icma bələdiyyələri aqlomerasiyadır və yaxın ərazidə yerləşən bir neçə kənd, rayon mərkəzi və ya kiçik şəhərlər birləşərək vahid bələdiyyə formalaşdırırlar. Bələdiyyə şuraları isə bütün kəndlərə öz nümayəndələrini təyin edirlər. Yerli Özünüidarəetmə Məcəlləsinin 16-cı maddəsi bələdiyyələrə ayrılan müstəsna səlahiyyətləri müəyyənləşdirir. Həmin maddəyə əsasən müstəsna səlahiyyətlərə bunlar daxildir: ərazi planlaşdırması və mühəndis infrastrukturunun inkişafı; tikintiyə icazə və tikinti nəzarəti; məzarlıqların təşkili və saxlanması; yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və nəqliyyatın hərəkətinin tənzimlənməsi, nəqliyyat xidmətlərinin təşkili; avtomobillərin parklanması üçün yerin ayrılması, parklanma qaydasının tənzimlənməsi; park, küçə və digər ictimai məkanlarda tullantıların toplanması və daşınması; su təchizatı (o cümlədən texniki su); məktəbəqədər və orta təhsil müəssisələrinin fəaliyyətinin təmin edilməsi; küçə ticarətinin, reklamlarının yerləşdirilməsinin tənzimlənməsi, yarmarkaların təşkili; sahibsiz heyvanların nəzarətdə saxlanması, ev heyvanlarının saxlanması qaydalarının müəyyənləşdirilməsi; əlillərin, qocaların və uşaqların sosial qayğısı üçün müvafiq infrastrukturun təşkili və saxlanması; evsiz insanların uçotu və onların qalması üçün məkanların təşkili.

Gürcüstanın ərazisi hazırda ümumilikdə 76 bələdiyyəyə bölünür - ölkənin paytaxtı Tbilisi də daxil olmaqla 12 özünü idarə edən şəhər və 64 icma .İki muxtar respublikaları və Tbilisi xaricində bələdiyyə doqquz rayonlarında (Quriya, İmereti, Kaxeti, Kvemo Kartli, Mtsxeta-Mtianeti, Racha-Lechkhumi and Kvemo Svaneti, Sameqrelo-Zemo Svaneti, Samtskhe - Cavaxetivə Şida Kartli. Gürcüstan qanunlarında belə bir anlayış var ki, yerli özünüidarənin yekun bölməsi və sistemi işğal olunmuş ərazilərdə dövlətin suverenliyi bərpa edildikdən sonra yaradılmalıdır. Gürcüstan qanunlarına görə, bələdiyyə sərhədləri və özünüidarəetmə hüququ müəyyən edilmiş yaşayış məntəqəsi və ya qəsəbə qrupudur. Bələdiyyələrin iki növü var - özünüidarə edən şəhərlər, cəmi beş və özünüidarə edən icmalar, 2019-cu ilin yanvarına ümumilikdə 64. Hazırkı bələdiyyələr 2006-2017-ci illər arasında yaradılıb.

Gürcüstanda 12 regional administrasiya var və seçkili deyil, mərkəzi hakimiyyət tərəfindən formalaşdırılır, onlara təyinatlı komissarlar rəhbərlik edir. Regional hökumətlərin əsas funksiyası region daxilində (Acarıstan və Tbilisi istisna olmaqla) bələdiyyələrin fəaliyyətini, həmçinin bələdiyyətlərlə mərkəzi hökuməti əlaqələndirməkdir. Regional komissarlar bilavasitə baş nazir qarşısında cavabdehdir. Paytaxt Tbilisi özünüidarə hüququ olan region statusuna malikdir. İcma bələdiyyələrindən fərqli olaraq, Tbilisi bələdiyyəsi daha geniş səlahiyyət dairəsinə malikdir və ilkin səhiyyə xidmətinin, fövqəladə hallarla bağlı xidmətlərin təşkili kimi əlavə məsələlərə də cavabdehlik daşıyır. Öz büdcəsini təsdiqləmək və vergilər müəyyən etmək səlahiyyətləri onun geniş maliyyə muxtariyyətinə sahib olduğunu göstərir. Şəhər Şurası 50 nəfərdən təşkil olunur – 25 nəfər təkmandatlı dairələrdən majoritar, 25 nəfər isə partiya siyahısı ilə proporsional qaydada seçilir. Tbilisi 10 rayondan təşkil olunub və onların heç biri ayrı-ayrılıqda yerli özünüidarə statusuna malik deyil. Rayon şuralarının əsas vəzifəsi Tbilisi merinin qəbul etdiyi qərarların icrasını, meriya ilə

rayonlar arasında əlaqəni təmin etməkdir. Gürcüstanda bələdiyyələrin gəlir və xərclərinin ÜDM-də payı 5%-dən bir qədər çoxdur. Bu, Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə yüksək göstərici olmasa da, keçid ölkələri üçün xeyli yüksək sayıla bilər. Bu fakt Gürcüstanda həm administrativ, həm də maliyyə əksmərkəzləşməsinin sürətli getdiyinə dəlalət edir. Gürcüstan əksmərkəzləşmə səviyyəsinə görə regionun lider dövləti olsa da, bu sahədə hələ görüləsi işləri kifayət qədər çoxdur. Məsələn, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin ekspertlərinin yerli demokratiya ilə əlaqədar son (2018-ci il) monitorinqinin nəticələrinə görə, bəzi səlahiyyətlərin müstəsnalığının təmin edilməsi sahəsində hələ də problem qalır. Xüsusilə iri şəhərlərdə içməli su və kanalizasiya təminatı sahəsində səlahiyyətlər hələ də bələdiyyəyə aid olmayan təsərrüfat subyektlərinə (bəzilərində dövlət, bəzilərində özəl şirkətlər) məxsusdur. Problemləri nəzərə alaraq Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi 7 noyabr 2018-ci ildə yerli demokratiyanın inkişafı ilə bağlı Gürcüstan hökumətinə 426 saylı tövsiyələr təqdim edib. Həmin tövsiyələrə əsasən hökumət bir sıra addımlar atmalıdır. Məsələn, bəzi sahələrdə səlahiyyətlərin dəqiqləşdirilməsi və səlahiyyətlərin müstəsnalığının təminatı, büdcə transfertlərinin ayrılması sisteminin təkmilləşdirilməsi, xüsuslə də büdcə dəstəyi alan bələdiyyələrin öz gəlir mənbələrini genişləndirməyə marağının azalmasının qarşısının alınması, yerli hakimiyyət səlahiyyətlərinin bələdiyyə sədrlərinin əlində cəmlənməsi riskinin aradan qaldırılması, bələdiyyələrin gəlir mənbələrinin gücləndirilməsi hesabına onların maliyyə potensialının genişləndirilməsi, regionlar arasında sosial-iqtisadi inkişaf fərqlərinin azaldılması qeyd olunan tövsiyələr sırasındadır

## Nəticə

Qeyd edilən fikirləri ümumiləşdirərək deyə bilərik ki, Gürcüstandan fərqli olaraq Azərbaycanda bələdiyyələr yerli hakimiyyət (və ya hökumət) statusuna malik deyil. "Bələdiyyələrin statusu haqqında" Qanunun 1-ci maddəsində qeyd edilir ki, Azərbaycanda yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin sistemidir və bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Göründüyü kimi, bələdiyyələrin yerinə dövlət işlərini yerinə yetirməli təsisatlar olduğu vurğulanır, amma yalnız o ifadə əlavə edilmir ki, onlar "bilavasitə əhalinin səsi ilə formalaşan yerli hakimiyyət statusuna malik strukturlar"dır. Halbuki Avropa Şurası Yerli və Regional Demokratiya Komitəsinin 2007-ci ildə hazırladığı "Avropada yerli hakimiyyətlərin səlahiyyətləri" adlı sənəddə qeyd olunur ki, yerli özünüidarə müstəqil sistemdir, lakin onların müstəqilliyinin səviyyəsi bilavasitə malik olduqları səlahiyyətlərin və resursların həcmindən asılıdır. Təşkilatın yanaşmasına görə, əgər yerli özünüidarə qurumları öz vəzifələrini yerinə yetirmək və resurslarından səmərəli istifadə etmək üçün zəruri hakimiyyətə malik deyilsə, bu şəraitdə həmin qurumlar, sadəcə olaraq, özlərindən yuxarı pillədə dayanan idarəetmə orqanlarının tapşırıqlarını icra edən təsisatlar kimi fəaliyyət göstərirlər.Beynəlxalq təcrübədən fərqli olaraq Azərbaycanda bələdiyyələrin hakimiyyət statusu qazanmaması, yerli hakimiyyətlərin bilavasitə mərkəzi hakimiyyətin təyinatı ilə formalaşan, yerli əhalinin deyil, mərkəzi hökumətin qarşısında məsuliyyət daşıyan icra hakimiyyətləri kimi tanınmasını şərtləndirib. 2012-ci ilin iyununda qəbul edilən "Yerli icra hakimiyyətləri Əsasnaməsi"ndə yerli problemlərin həlli ilə bağlı bütün məsuliyyətin məhz yerli icra hakimiyyətlərinə məxsus olduğu aydın görünür. "Bələdiyyələrin statusu haqqında" Qanunun 4-cü, 5-ci və 6-cı maddələrində yerli özünüidarə qurumlarına müəyyən səlahiyyətlər nəzərdə tutulsa da, "Yerli icra hakimiyyətləri Əsasnaməsi"ndə, bir sıra sahə sənədlərdə (məsələn, "Şəhərlər və digər şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları") eyni səlahiyyətlərin tamamı mərkəzi və yerli icra strukturlarına ayrılıb. Bütün kommunal xidmətlərin hamısı mərkəzi hökumətə məxsus dövlət şirkətləri vasitəsilə reallaşdırılır. Bu isə Yerli özünüidarəütmə haqqında Avropa Xartiyasının 4.4-cü maddəsinə (səlahiyyətlərin

müstəsnalığı prinsipi) ziddir. Nəticə etibarilə bələdiyyələrin hər hansı həyati vacib olan səlahiyyəti də yoxdur. Azərbaycanda bələdiyyə institutunun yaranması ultramərkəzləşmiş dövlət idarəçiliyinin hansısa səlahiyyətindən imtinası ilə nəticələnməyib. Bələdiyyələr o qədər səlahiyyətsiz və imkansızdır ki, onlar hətta kiçik kəndlərin ərazilərini zibil və tullantılardan təmizləmək gücündə belə deyillər. Yeri gəlmişkən, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 2004-cü ildə qəbul olunmuş 157 saylı tövsiyəsinə görə, təhsil, səhiyyə, sosial təminat və mədəniyyət sahələrinə aid vacib funksiyalar bilavasitə yerli maraqlarla bağlıdır. Lakin həmin sahələr üzrə funksiyaların bələdiyyələrin məsuliyyət dairəsindən çıxarılması və bu qurumların səlahiyyətlərinin məhdudlaşdırılması yerli özünüidarənin ikinci dərəcəli orqanlar kimi qəbul olunması riski yaradır.

Ölkə prezidentinin rayon və şəhərlərə təyin etdiyi İcra Hakimiyyəti başçıları da bütün kənd və qəsəbələrə öz nümayəndələrini təyin edirlər. Bələdiyyələr hüquqi baxımdan müstəqil olsa da, de-fakto yerli icra hakimiyyətlərindən tam asılı, iyerarxiyada onların tabeçiliyində olan qurumlar kimi fəaliyyət göstərir. Hətta öz kiçik büdcələrini belə yerli icra hakimiyyətlərinin qeyri-rəsmi razılığı olmadan xərcləmək, vətəndaşların təcili ehtiyaclarına yönəltmək imkanına malik deyillər.

Gürcüstan təcrübəsindən də göründüyü kimi, problemin köklü həll yolu qanunvericilikdə yerli özünüidarəetmənin yerli hakimiyyət statusu qazanması, onların “müstəsna”, “təbii” və “ötürülə bilən” səlahiyyətlərinin çox dəqiqliklə ayrılması, yerli icra strukturlarının birdən-birə ləğvi mümkün olmasa, yaxud bu qurumları yerlərdə mərkəzi hökumətin təmsilçisi kimi saxlamaq istəyirlərsə, ən azından yerli xidmətlərin göstərilməsi, yerli inkişafın planlaşdırılması ilə bağlı səlahiyyətlər seçikili şuralara və merlərə ötürülməlidir.Amma problem səlahiyyət və status problemi ilə də bitmir. Gərək bütün səlahiyyətlərin maliyyə dəyərləndirməsi analiz edilsin, bələdiyyələrə ya həmin səlahiyyətlərin icrası üçün zəruri həcmdə vəsait toplamağa imkan verən vergi növləri və bazası təqdim edilsin, ya da hökumət dövlət səlahiyyətlərinin icrası üçün transfert mexanizmi formalaşdırsın. Halbuki artıq 20 ildir qüvvədə olan “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Qanunda müəyyən edilən 10-a yaxın vergi və qeyri-vergi mənbələri məhsuldar və real mənbələr deyil. Bunun nəticəsidir ki, Azərbaycanda 1606 bələdiyyə qurumunun birlikdə büdcəsi son illər 50-60 mln. manatdan (30-35 mln. dollar) çox olmayıb. DSK-nın məlumatına görə, 2018-ci ildə bələdiyyə büdcələri daha da azalaraq cəmi 35 mln. manata enib. Nəzərə alaq ki, 20 minə yaxın üzvü və müqavilə əsasında işləyənlərə sahib 1606 bələdiyyə üçün 20 mln. dollarla hətta administrativ xərcləri belə ödəmək mümkünsüzdür. Nəzərə alaq ki, Azərbaycanın bütün (1606) bələdiyyələrin birlikdə maliyyə gücü tək Tbilisi meriyasının büdcəsinin heç 10%-nə də çatmır.Nəhayət, Gürcüstandan fərqli olaraq Azərbaycanın paytaxtı bilavasitə vətəndaşların səsi ilə formalaşan Şura tərəfindən idarə edilmir, şəhərin xüsusi statusuna dair qanunvericilik yoxdur, şəhər idarəçiliyi bütünlüklə mərkəzi hakimiyyət tərəfindən formalaşdırılır, nə büdcənin formalaşmasında, nə xərclənməsində, nə şəhərsalma ilə bağlı strateji qərarların qəbulunda və qısa, orta və uzunmüddəti planlaşdırmada vətəndaşın səsi eşidilir. Halbuki “Paytaxt şəhərlərinin idarə olunması haqqında” 133 saylı tövsiyəyə əsasən paytaxt şəhərlərinə elə şərait yaradılmalı və elə səviyyədə resurslar təqdim olunmalıdır ki, onlar öz administrativ funksiyalarını müstəqil həyata keçirə bilsinlər. Öz növbəsində, tövsiyə sənədinin 12-ci bəndinə görə, istənilən paytaxt şəhərinin idarə olunmasının əsas şərtlərindən biri vətəndaşların qərar qəbulu prosesində iştirakının təmin olunmasıdır. Bundan əlavə, Avropa Şurasının “Paytaxt şəhərlərinin statusu haqqında” 219 saylı tövsiyəsi də (sənəd 2007-ci ildə qəbul olunub) mərkəzi şəhərlərdə vahid yerli özünüdarəetmə prinsiplərinin tətbiqini nəzərdə tutur. Tövsiyə sənədinin 8-ci bəndində deyilir ki, mərkəzi hökumətin nəzarəti altında olan qurumlar paytaxtın yerli özünüidarə qurumlarının fəaliyyətini kompensasiya edə bilməz.

Azərbaycanda həm təcrübə, həm də hüquq baxımından bələdiyyə və yerli büdcələr arasında münasibətlərin tənzimlənməsi vəziyyəti çox bərbaddır. Bələdiyyələrə büdcə dəstəyinin, büdcə tarazlaşdırmasının meyar və prinsipləri aydın və şəffaf deyil, tamamilə qeyri-müəyyəndir. Azərbaycanda bələdiyyələrin gəlir və xərclərinin ÜDM-də payı 0.05% ətrafındadır. Bu o deməkdir ki, Cənubi Qafqazın digər ölkələrindən fərqli olaraq Azərbaycanda maliyyə və administrativ əks mərkəzləşmə ümumiyyətlə, baş verməyib. Yeri gəlmişkən, Azərbaycanda icra hakimiyyətlərinin regional idarəçilik sistemi yoxdur. Onlar yalnız rayonlar üzrə təşkil edilib.

## References

1. The Constitution of the Republic of Azerbaijan, 1995 (http://www.e-qanun.az/framework/897)
2. İbragimov İ. (2014), International experience of municipal management, Baku. "Ziya"
3. İbragimov İ. (2018), Municipal Administration, Baku. "Tabib"
4. 3.Salimzade M.I., Khalilov G.R, (2010), Y.O.i: concept, experience, cooperation, legal bases. Baku, "Science and education",
5. Yusifov S., Ismayilov V. and Huseyn A. (2016), Legal and financial bases of local self-government.
6. www.e-gov.az/az/content/read/2
7. www.e-qanun.az
8. www.files.preslib.az
9. www.president.az
10. www.msk.gov.az
11. www.stat.gov.az
12. www.taxes.gov.az
13. www.amerikaninsesi.org/a/3755784.html
14. www.bbc.com/azeri/azerbaijan-37762070
15. www.belediyye.info
16. www.goldenpay.az/Pay.html
17. www.iacis.az/?page_id=2774
18. www.modern.az/az/news/137491
19. www.publicadministration.un.org

**Rəyçi: dos. C.Cahangirli**

Göndərilib: 07.11.2021 Qəbul edilib: 26.11.2021

# İÇİNDƏKİLƏR

**Aytən Habil qızı Əliyeva**
Turizm xidmətləri bazarının müasir vəziyyəti .......... 7
**Nərgiz Bəhrəm qızı Qaralova**
Azərbaycanda dövlət qulluğu sisteminin dövlət idarəçiliyində mövqeyi .......... 12
**Kənan Amil oğlu Musayev**
Azərbaycan Respublikasında davamlı qida təminatı yolunda
atılan addımlar və əsas hədəflər .......... 18
**Ebru Ələsgər qızı Bədirli**
Avropa birliyində yerli idarəetmə ilə Azərbaycandakı yerli idarəetmənin
müqayisəsi və hər iki nümunədəki müsbət və mənfi cəhətləri .......... 23
**Qətibə Elsəvər qızı Rüstəmova**
Azərbaycanda yerli hakimiyyətin idarəetməsi ilə Gürcüstandakı yerli
idarəetmə ilə müqayisəsi .......... 30

Çapa imzalanmışdır: 28.11.2021
Kağız formatı: 60/84
H/n həcmi: 3,25
Sifariş: 452

www.aem.az saytında çap olunub
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
E-mail: info@aem.az